AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

«MAGİSTRATURA MƏRKƏZİ»

Əlyazma hüququnda

QURBANOV PƏRVİZ BƏXTİYAR

"TİCARƏT TƏŞKİLATLARINDA SƏMƏRƏLİLİYİN TƏHLİLİ METODİKASI VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ"
mövzusunda

M A G İ S T R D İ S S E R T A S İ Y A S I

İxtisasın şifri və adı: **İİM - 060402 "Mühasibat uçotu və audit"**

İxtisaslaşma: **"Xidmət sferasında mühasibat uçotu"**

Elmi rəhbər: **dos.C.C.Zərbəliyev**

Proqram rəhbəri: **dos.R.N.Kazımov**

Kafedra müdiri: **prof. S.M.Səbzəliyev**

BAKI-2017

M Ü N D Ə R İ C A T

GİRİŞ 3

FƏSİL I. TİCARƏT TƏŞKİLATINDA SƏMƏRƏLİLİYİN MÜƏYYƏN EDİLMƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI 6

1.1. Kommersiya təşkilatında iqtisadi təhlilin təşkili xüsusiyyətləri 6

1.2. Müasir dövrdə ticarət təşkilatının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin metodoloji problemləri 10

FƏSİL II. BAZAR İQTISADİYYATI ŞƏRAİTİNDƏ TİCARƏT TƏŞKİLATINDA SƏMƏRƏLİLİYİN TƏHLİLİ 16

2.1. Ticarət təşkilatında ümumi gəlirin təhlili 16

2.2. Xərclərin tərkibi, dinamikası və strukturunun təhlili 21

2.3. Ticarət təşkilatında mənfəətin formalaşması və istifadəsinin təhlili 31

FƏSİL III. TİCARƏT TƏŞKİLATINDA SƏMƏRƏLİLİYİN TƏHLİLİ METODİKASININ TƏKMİLLƏŞDİRİLMƏSİ 41

3.1. Ümumi gəlirin təhlili metodikasının təkmilləşdirilməsi 41

3.2. Kommersiya xərclərinin təhlili metodikasının təkmilləşdirilməsi 53

3.3. Ticarət təşkilatında səmərəliliyin qiymətləndirilməsinin təkmilləşdirilməsi 59

NƏTİCƏ 69

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI 72

GİRİŞ

Mövzunun aktuallığı. Respublikamızda iqtiasadiyyatın müasir inkişaf mərhələsində təsərrüfatçılıq fəaliyyətinə təsir edən amillərin sayı və xarakteri daima dəyişməkdədir. Dünya təcrübəsi sübut edir ki, iqtisadi inkişafın bütün təsir parametrləri baxımından səmərəlilik və ticarətin hərəkəti qarşılıqlı effektə malikdirlər və hətta kənar faktorlara onların təsirləri arasında ölçülə bilən və hiss ediləcək əlaqə vardır. İqtisadi inkişafın bütün təsir parametrləri baxımından ticarətin hərəkəti qarşılıqlı effektə malikdir.

Ticarət müəssisələrinin müvəffəqiyyətlə fəaliyyət göstərməsi üçün daim dəyişən bazar mühütündən asılı olaraq onun kommersiya fəaliyyətinin dərin təhlilini həyata keçirmək zəruridir. Bu, müəssisəni sabit mənfəətli və ya ziyanla işləməsindən asılı olmayaraq bazar mühiti ilə qarşılıqlı təmasda olan mürəkkəb bir sistemdir. Buna görə də müəssisənin kommersiya fəaliyyətinin bütün tərəflərini tam və düzgün əks etdirən vahid bir göstərici tapmaq qeyri mümkündür. Hətta, müəssisənin fəaliyyətinin səmərəliliyini daha dəqiq müəyyən edən mənfəət göstəricisində belə bir göstərici ola bilməz. Müəssisənin fəaliyyətinin səmərəliliyini hərtərəfli qiymətləndirmək üçün göstəricilər sisteminin olması vacibdir.

Ticarət (kommersiya) müəssisələrinin işinin səmərəliliyinin ən mühüm göstəricilərindən biri mənfəətdir ki, onda müəssisənin bütün ticarət fəaliyyətinin nəticələri öz əksini tapır- satılmış məhsulun həcmi, onun tərkibi və çeşid quruluşu, əmək məhsuldarlığı, xərclərin səviyyəsi, qeyri məhsuldar xərclərin və itkilərin mövcudluğu və s.

Dissertasiya işinin aktuallığını müəyyənləşdirən əsas məsələlər yuxarıda şərh edilən məntiqə əsaslanır.

Problemin öyrənilməsi səviyyəsi. Respublikamızda tədqiqi edilən problemin nəzəri əsaslarının hərtərəfli öyrənilməsinə faktiki olaraq, müstəqillik dövründə başlanılmışdır. Son illərdə aparılan elmi-tədqiqat işlərində ticarətin səmərəliliyinin metodikası geniş araşdırılmışdır. Bu baxımdan fikrimizcə ticarətin səmərəliliyinin

artıtılmasıvə təkmilləşdirilməsinə S.M.Səbzəliyevin, Q.Ə.Abbasovun, H.R.Qaracayevin, H.İ.Namazəliyevin, S.M.Yaqubovun S.M.Qasımovun, T.Məmmədovun, N.M.İsmayılovun, V.M.Quliyevin, C.B.Namazovanın, İ.M.Mahmudov, H.A. Cəfərlinin və başqaları özlərinin elmi əsərlərində mənfəət və rentabelliyin, ticarətdə səmərəliliyin təhlilini işıqlandırmışlar.

Xarici ölkə alimlərindən M.İ.Bakanovun, D.A.Şeremetin, L.İ.Kravçenkonun, A.İ.Abaturovun, A.N.Kaşayevin, A.Y.Kavalyevin və digərlərinin elmi-praktiki xarakterli dərslikləri və dərs vəsaitləri təşkil edir və başqalarının əsərlərində görmə olar.

Yuxarıda deyilənlər dissertasiya işi mövzusunun seçilməsini, onun aktuallığını və tədqiqatın başlıca istiqamətlərini şərtləndirmişdir.

Tədqiqatın məqsəd və vəzifələri. İşin başlıca məqsədi – ticarətdə səmərəliliyin təhlilinin mövcud nəzəri-metodoloji və praktiki aspektlərini tədqiq etmək və onların təkmilləşdirilməsinə dair əsaslandırılmış təkliflər işləyib hazırlamaqdır. Deyilənləri nəzərə alaraq dissertasiya işi qarşısında aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Yeni şəraitdə səmərəliliyin mahiyyəti və məzmunu üzrə mövcud nəzəri-metodoloji konsepsiyaları təhlil etmək və sistemləşdirmək;
- Kommersiya strukturlarında səmərəliliyin və təhlilin rolu və yerini müəyyən etimə;
- Səmərəliliyin müəyyən olunmasının metodologiyasını müəyyən etmək;
- Mal dövriyyəsinin həcmi və strukturunun səmərəliliyini müəyyən etmək;
- Mal ehtiyatlarının formalaşması və səmərəliliyini təhlili metodikasını müəyyən etmək;
- Kommersiya xərclərinin səmərəliliyini təhlil etmək;
- Ümumi gəlir və mənfəətin təhlilini vermək və çatışmamazlıqları göstərmək;
- Səmərəliliyin təhlili metodikasını və rentabelliyin yüksəldilməsi metodikasının təkmilləşdirilməsinə dair təkliflər vermək.

Tədqiqatın predmeti və obyekti. Yerinə yetirilən dissertasiya işinin predmeti kommersiya təşkilatında səmərəliliyin təhlilinin metodikasının təkmilləşdirilməsidir.

Tədqiqatın nəzəri və metodoloji əsasını Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Əmək Məcəlləsi, «Mühasibat uçotu haqqında Qanun», Milli Mühasibat Uçotu Standartları, «Maliyyə hesabatının Beynəlxalq Standartları» və digər normativ-hüquqi aktları, statistik məlumatlar, mövzuya dair iqtisadi ədəbiyyatlar və s. təşkil edir.

Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- ticarətdə səmərəliliyin nəzəri məsələləri tədqiq edilmişdir;
- ticarətdə iqtisadi təhlil və səmərəliliyin qiymətləndirilməsi göstəricilər sistemi müəyyən edilmişdir;
- mənfəət və tədavül xərcləri göstəricilərinin təhlil edilərək daxili ehtiyatlar müəyyən edilmişdir;
- səmərəlilik göstəricisi olan rentabellik təhlil edilmiş və rentabelliyin yüksəldilməsi ehtiyatları müəyyən edilmişdir;
- ticarətdə səmərəliliyin mərhələlər üzrə kompleks təhlilinin göstəricilər sistemi işlənib hazırlanmış və onların iqtisadi səmərəliliyini xarakterizə edən əsas kəmiyyət və keyfiyyət əlaqələri aşkarlanmışdır;
- ticarətdə səmərəliliyin təhlil edilərkən kommersiya fəaliyyətinin son nəticəsi sayılan mənfəətə təsiri qiymətlənldirilmişdir;
- ticarətdə səmərəliliyin kompleks iqtisadi təhlilinin təqribi modeli və tətbiqi işlənib hazırlanmışdır.

Tədqiqatın təcrübi əhəmiyyəti ondan ibarətdir ki, onun nəzəri-metodiki müddəaları və tövsiyələri kommersiya strukturlarında ticarətin səmərəliliyin yaxşılaşdırılmasında və bu sahədə idarəetmə qərarlarının qəbul edilməsində istifadə oluna bilər.

Dissertasiyanın quruluşu və həcmi. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

FƏSİL I. TİCARƏT TƏŞKİLATINDA SƏMƏRƏLİLİYİN MÜƏYYƏN EDİLMƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

1.1. Kommersiya təşkilatında iqtisadi təhlilin təşkili xüsusiyyətləri

Cəmiyyətdə əmtəə ehtiyatlarının mövcudluğu əmtəə hərəkətinin səmərəli təşkili və idarə olunması ilə bağlıdır. Ümumilikdə Respublika üçün mal kütlələrinin iri nəqliyyat vasitələrində hərəkəti daha qənaətli hesab olunur, məsələn, bütöv vaqonlarla, konteynerlərlə və marşrutlarla (vaqon heyətləri ilə). Belə ki, bu zaman müxtəlif nəqliyyat növlərindən daha səmərəli istifadə etmək imkanları yaranır. Bunun üçün müəyyən ehtiyatların yaradılması tələb olunur. bundan başqa, əmtəələrin nəqliyyatlaşdırılması şəraiti və şərtləri ölkənin bəzi rayonlarına malların vaxtından əvvəl gətirilməsi və bu rayonlarda müəyyən mal ehtiyatlarının təşkili zərurətini yaradır.

Səmərəli əmtəə ehtiyatlarının təşkili və onların tənzimlənməsi – əmtəələrin geniş təkrar istehsalının təmin olunmasının, o cümlədən əmtəələrin fasiləsiz satışının mümkün istehsal və tədavül xərcləri şəraitində əhalinin tələbatının tam və vaxtında ödənilməsinə şərait yaradır.

Mənfəətlərin həcmindən fondlara ayırmalar, işçilərin malli mükafatlandırılması, vergilərin ödənilməsi və s. asılıdır. Mənfəətin olması onu göstərir ki, mal satışı və xidmətlər göstərilməsindən əldə edilən gəlirlər hesabına ticarət müəssisəsinin bütün xərcləri tam ödənilir. Ticarətdə mal satışından əldə edilən mənfəət (əməliyyat mənfəəti) və xalis və ya balans mənfəəti fərqlənir. Əməliyyat mənfəəti – ticarət əlavələri (qiymət əlavələri) ilə tədavül xərcləri arasında fərqdən ibarətdir. Balans mənfəəti – sair planlaşdırılan və planlaşdırılmayan gəlirləri və xərcləri nəzərə almaqla hesablanılır. Planlaşdırılan xərcləri nəzərə almaqla hesablanır, planlaşdırılan xərclərə federal və yerli büdcələrə ödənilən vergilər, planlaşdırılmayan xərclərə isə müqavilə öhdəliklərinin pozulmasına görə ödənilən cərimələr, pensiyalar, ümidsiz borcların silinməsindən itkilər və əməliyyat

mənfəətini azaldan digər itkilər aid edilir. Planlaşdırılmayan gəlirlərə müxtəlif təşkilatdan alınan cərimələr, pensiyalar, inventarizasiya zamanı aşkar edilmiş əlavə əmtəə material qiymətləri, iddia müddəti başa çatdığından kreditor borclarının silinməsi və s. aid edilir.

Ticarət müəssisələrinin iqtisadi səmərəliliyini xarakterizə etmək, həmçinin müqayisəli təhlil aparmaq məqsədilə mənfəətin təkcə mütləq kəmiyyətini deyil, onun səviyyəsini də təyin etmək lazımdır. Mənfəətin səviyyəsi ticarət müəssisələrinin fəaliyyətinin səmərəlilik göstəricilərindən biri olub, onun rentabelliyini xarakterizə edir. Rentabellik ictimai istehsalın iqtisadi səmərəlilik göstəricisi olub hər bir ticarət müəssisə və təşkilatının mənfəətliliyini xarakterizə edir. Lakin bu göstərici ticarət və ya kommersiya fəaliyyətinin rentabelliyinin yeganə göstəricisi deyil, belə ki, bu göstərici yalnız mal dövriyyəsinin cəmində ticarətin xalis gəlirini xüsusi çəkisini göstərir. Bu göstəricidə kommersiya fəaliyyəti ilə əlaqədar olan bütün avans xərclərinin (birdəfəlik və cari) səmərəlilik dərəcəsi öz əksini tapır. Belə ki, eyni məbləğdi mənfəətə və mal dövriyyəsinə malik olan kommersiya təşkilatında əsas və dövriyyə vəsaitlərinə qoyuluşların məbləği müxtəlif həcmdə ola bilər. Bununla əlaqədar ticarət fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsində mənfəətlə çəkilən xərclərin (tədavül xərclərinin) müqayisəsi böyük əhəmiyyət kəsb edir:

$$\frac{M}{X} \times 100\%$$

Burada, M – müəyyən dövr üçün ticarət mənfəəti (məbləğlə);

X – ticarət müəssisəsinin xərclərini (məbləğlə) göstərir.

Bu göstərici ticarət fəaliyyətinin səmərəliliyi haqda mühakimə yürütməyə imkan verir. Belə ki, kommersiya işinin aparılmasına çəkilən hər bir manata düşən mənfəətin xüsusi çəkisini əks etdirir.

Bunlardan əlavə səmərəlilik göstəricilərinə aşağıdakıları da aid etmək olar: mənfəətin əməkhaqqı fonduna nisbəti; ticarət müəssisəsinin bir işçisinə düşən mənfəətin məbləği; mənfəətin əsas və dövriyyə vəsaitlərinə nisbəti və s.

Ticarət işinin səmərəliliyinin keyfiyyət göstəricilərindən biri tədavül xərcləridir. Malların istehsalından istehlakına qədər çəkilən xərclər pul ifadəsində tədavül xərclərini təşkil edir. Malların alqı-satqı proseslərinin həyata keçirilməsi ilə əlaqədar olan xərclər (alış, əmtəələrin satışı, alqı-satqı aktları ilə əlaqədar olan məsələlər) xalis tədavül xərcləri adlanır. Kommersiya fəaliyyətinin təhlili zamanı xalis və əlavə tədavül xərclərinin xüsusi çəkisini müəyyənləşdirmək mümkündür. Tədavül xərclərinin səviyyəsi tədavül xərclərinin məbləğinin mal dövriyyəsinə nisbəti kimi hesablanır və faizlə ifadə olunur. Bu göstərici müəyyən dərəcədə ticarət fəaliyyətinin qənaətliliyini əks etdirir. Bu göstərici eyni zamanda müəssisə-nin işinin müqayisəli təhlili zamanı tətbiq olunur.

Yeni şəraitdə yük daşımaları və xidmətlər üzrə tarif qiymətlərinin yüksəlməsi ilə əlaqədar olaraq tədavül xərclərinin artması müşahidə olunur. bu baxımdan ticarət müəssisələrinin fəaliyyətinin səmərəliliyiniճn əsas şərtlərindən biri tədavül xərclərinə qənaət edilməsidir.

Ticarət müəssisələrinin kommersiya fəaliyyətinin səmərəliliyinin digər mühüm şərti malların dövriyyə sürətidir ki, bu da mal dövriyyəsi sürəti göstəricilərində öz əksini tapır.

Mal dövriyyəsi sürəti – malların dövretmə sürətini və ya əmtəə ehtiyatlarının satıldığı müddətinin vaxtını göstərir. Mal dövriyyəsinin sürətləndirilməsi ticarət təşkilatı işinin qiymətləndirilməsinin əsas işidir. Ona görə ki, malların tədavül sahəsində olması vaxtının qısaldılması deməkdir və deməli, pul vəsaitlərinin daha tez dövr etməsi və ticarət proseslərinin yerinə yetirilməsində onlara olan tələbatın azalması deməkdir.

Sənaye müəssisələrindən fərqli olaraq kommersiya strukturlarında iqtisadi təhlilin özünəməxsus mühüm xüsusiyyətləri:

Hazırda kommersiya strukturları demək olar ki, özəlləşdirilmiş və onlar kollektiv və ya xüsusi mülkiyyətə (səhmdar cəmiyyəti, xüssi ticarət müəssisələri və s.) məxsus olan müəssisələrdən ibarətdir.

Kommersiya müəssisələri sənaye müəssisələrindən fərqli olaraq əsasən bilavasitə əhaliyə xidmət edir.

Ticarətə investisiya olunan kapital sənayeyə investisiya olunan kapitaldan daha yüksək dövriyyəsi və səmərəsi ilə fərqlənir.

Ticarət müəssisələri özəlləşdirmədən əvvəlki dövrlə müqayisədə həddən artıq kiçik müəssisələrdən ibarət olmuşdur. Onlar dövlət nizamlaşdırılmasının müxtəlif növlərinin təsirindən, vergi orqanlarının, sanitar-epidomoloji nəzarət orqanlarının və istehlakçıların marağını müdafiə edən cəmiyyətlərin nəzarətindən əsasən kənarda fəaliyyət göstərirlər.

Hazırda fəaliyyət göstərən kommersiya sirri onların fəaliyyətlərinin hərtərəfli və dərindən təhlilini olduqca çətinləşdirri. Belə ki, kommersiya sirri bütün istehsal, ticarət və maliyyə əməliyyatlarının və onlara aid sənədlərin gizli saxlanılmasını təmin edir. Bundan istifadə edərək müəssisələr (xüsusilə ticarət müəssisələri) tələb edilən məlumatları verməkdən tamamilə imtina edirlər, ya da iqtisadi-analitik ümumiləşdirmələri özündə tam əks etdirməyən məlumatları təqdim edirlər. Auditor yoxlamalarının həyata keçirilməsi əksər hallarda vəziyyəti özündə düzgün əks etdirmir. Bazar iqtisadiyyatı şəraitində iqtisadi tələblərin öyrənilməsi üsullarını və qaydalarını həddən artıq çətinləşdirilmişdir. Tələb və təklif problemi aydındır ki, bütün təsərrüfat strukturlarına aiddir. Lakin pərakəndə ticarətdə yekun həlqə kimi tələbə təsir edən bir çox amillərin – ailənin gəlirlərinin həcminin, qiymətlərin səviyyəsinin, cinsi və yaş amillərinin milli-etnik və ekoloji amillərin və s. öyrənilməsini tələb edir.

Başqa sahələrdən fərqli olaraq ticarətdə kommersiya sirri özünü daha yüksək dərəcədə göstərir. Kommersiya sirri hər şeydən əvvəl daim dəyişən tələb və təklifdən, menecment xidmətindən asılıdır. Ona görə də ticarət müəssisələrinin balansının likvidliyinin təhlilinin rolu və əhəmiyyəti daha da artır.

Tədavül sferasında hazırda yalnız əmtəə bazarlarını deyil, həm də fond bazarını aid etmək olar. Bu sferaya istehsal və istehlak təyinatlı mallarla yanaşı qiymətli kağızlar da daxil olur. Burada ödəniş vasitəsi kimi kredit pullarının

müxtəlif növlərindən istifadə olunur. mal qrupları üzrə xərc tutumunun, gəlirlərin və rentabelliyin təhlili də mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi sənayedə hər bir məhsul və ya mal qrupunun maya dəyəri kalkulyasiya edilir. Lakin bu ticarətdə yoxdur. Tədavül xərcləri xərc maddələri üzrə təhlil edilir və kalkulyasiya həyata keçirilmir. Ona görə də hər bir ticarət əməliyyatlarının kifayət qədər gəlirli olduğunun müəyyən edilməsində müəyyən çətinliklər yaranır. Göründüyü kimi sənayedə olduğu kimi ticarətdə də kalkulyasiyanın aparılması zəruridir.

1.2. Müasir dövrdə ticarət təşkilatının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin metodoloji problemləri

Bazar münasibətlərinin inkişafı ticarətin fəaliyyətinin səmərəliliyinin təmin edilməsi üzrə idarəetmə qərarlarının hazırlanması və qəbul edilməsində onların məsuliyyəti və müstəqilliyini artırır. Müəssisənin istehsal, investisiya və maliyyə fəaliyyətinin səmərəliliyi əldə edilmiş maliyyə nəticələri ilə xarakterizə olunur.

Ticarətin maliyyə vəziyyətinin ümumi qiymətləndirilməsi mənfəət və rentabellik kimi maliyyə göstəriciləri əsasında aparılır. Mənfəət və rentabellik istehsalın səmərəliliyini xarakterizə edən mühüm göstəricidir. Mənfəət bir tərəfdən təşkilatın iqtisadi və sosial inkişafının əsas maliyyələşdirilməsi mənbəyi kimi, digər tərəfdən dövlət və yerli büdcənin gəlirlərinin əsas mənbəyi kimi çıxış edir.

Ticarət təşkilatının fəaliyyətinin son nəticəsi satılmış mal və xidmətlərin dəyəridir. Bu baxımdan ticarət təşkilatının kommersiya fəaliyyətinin səmərəliliyi ümumiləşdirilmiş göstərici ilə ifadə olunur və o da sabitdəşmiş mal və xidmətlərin dəyərinin onların satışına çəkilən xərclərə nisbəti kimi aşağıdakı düsturla hesablanır:

$$\text{Səmərəlilik}=\frac{Realizə\ edilmiş\ əmtəə\ (xidmətlərin)dəyəri}{Real\ tədavül\ xərcləri\ (mal\ və\ xidmətlərin\ satışına\ çəkilən\ xərclər)}$$

Bundan əlavə təşkilatın kommersiya fəaliyyətinin daha dolğun qiymətləndirilməsi üçün elə ümumiləşdirici göstəricidən istifadə etmək mümkündür ki, onun hesablanması zamanı bütün xərclənmiş vəsaitlər, o cümlədən əsas və dövriyyə fondlarına qoyulmuş vəsaitlər nəzərə alınmaqla müəssisənin fəaliyyətinin nəticələri müqayisə olunur.

Bazar iqtisadiyyatı şəraitində ticarətin iqtisadi səmərəliliyinin yüksəldilməsinin və kommersiya hesabının gücləndirilməsinin əsas istiqamətlərindən biri kimi xərclərə qənaət edilməsi probleminə çoxlu sayda metodoloji və fundamental xarakterli elmi-tədqiqat işləri həll edilmiş, nəzəri və praktiki əhəmiyyətə malik olan fikirlər söylənilmişdir. Belə alimlərdən Bakanov M.İ., Şeremet A.D., Kravçenko L.I., Qofman Q.İ., Makarova A.L., Namazəliyev H.I., Abbasov Q.Ə. və başqaları tərəfindən əmtəə ehtiyatlarına edilən mütləq və nisbi qənaətin hesablanması metodikası riyazi baxımdan işlənib hazırlanmış və iqtisadi cəhətdən əsaslandırılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən bu sahədə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin vacibliyini özündə əks etdirən normativ sənədlər qəbul olunmuş və onların yerinə yetirilməsi mühüm bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Qeyd olunan bu problemlərin həllində ilk növbədə müəssisənin bağlanılmış müqavilələrə uyğun olaraq mal ehtiyatları ilə təmin olunması və rentabellik səviyyəsinin qiymətləndirilməsindən, maddi qiymətləri ilə edilən mütləq və nisbi qənaətin hesablanması metodikasının yeni aspektdə işlənib hazırlanmasından və idarəetmənin bütün səviyyələrində təşkilatı işlərin səmərəli şəkildə təşkilindən başlamaqla nail olmaq mümkündür.

Yeni şəraitdə mal ehtiyatlarından istifadənin effektliyinin yüksəldilməsi onun çoxamilli iqtisadi təhlil metodikasının işlənib hazırlanması, qeyd olunan problemsahəsində mövcud olan fikirlərin mövcud olması strateji və taktiki istiqamətli konkret vəzifələrin, məqsədlərin müəyyən edilməsi zəruridir. Bu isə öz növbəsində mülkiyyət formasından və sahə mənsubiyyətindən asılı olmayaraq

bütün təsərrüfat subyektlərində qarşıya qoyulmuş vəzifələri ən optimal və səmərəli üsulla həyata keçirməyə imkan verən fəaliyyət metodlarının, vasitələrinin və formalarının işləyib hazırlanmasını, uçotun, auditin və iqtisadi təhlilin qüvvədə olan metodikasına yeni aspektlərin əlavə olunmasını nəzərdə tutur.

İqtisadi ədəbiyyatlarda və elmi-tədqiqat işlərində göstərildiyi kimi ticarətdə səmərəliliyi təhlil etməzdən əvvəl müəssisədə mənfəəti və rentabelliyin səviyyəsini müəyyən etmək lazımdır. Çünki yeni şəraitdə müəssisənin biznes planının əsas göstəricilərinin yerinə yetirilməsi təsərrüfat subyektlərinin sərəncamında olan vəsaitlərdən səmərəli istifadə edilməsində deyil, onların bağlanılmış kontraktlara uyğun surətdə vaxtında və tələbata uyğun şəkildə daxil olmasından da xeyli dərəcədə asılıdır.

Elmi tədqiqat işlərində ticarətdə bağlanmış müqavilələrə uyğun surətdə mal ehtiyatları ilə təmin olunması səviyyəsinin təhlili və qiymətləndirilməsi üçün müxtəlif metodikalardan istifadə olunur. Bəzi iqtisadçı alimlər təhlil işini aparmaq üçün ahəngdarlıqəmsalının hesablanmasının göstəricisinin müəyyən edilməsini və kənarlaşma göstəricisinin hesablanmasını məqsədəuyğun hesab edirlər. Bizim fikrimizcə, yeni şəraitdə ticarətin sərbəst fəaliyyət gsbətməsini onların mal ehtiyatları ilə bağlanmış kontraktların şərtlərinə uyğun şəkildə təmin olunmasını, təsərrüfat subyektlərinin dövlətlə əlaqələrinin yalnız vergilərlə tənzimlənməsini və s. amilləri nəzərə almaq məqsədəuyğundur.

Elmi-tədqiqat işlərində göstərildiyi kimi müəssisənin mal ehtiyatlarından istifadənin səmərəliliyini təhlil etməzdən əvvəl müəssisənin mal ehtiyatları ilə təmin olunması səviyyəsi müəyyən edilir. Çünki bazar münasibətləri şəraitində müəssisənin idarə olunmasının əsasını təşkil edən biznes planı «istehsal planı» adlı bölməsinin əsas göstəricilərinin yerinə yetirilməsi təsərrüfat subyektlərinin sərəncamında olan dövriyyə vəsaitlərindən effektli istifadə edilməsindən deyil, onların bağlanılmış kontraktlara uyğun surətdə vaxtında və tələbata müvafiq şəkildə daxil olmasından da xeyli dərəcədə asılıdır.

Bazar iqtisadiyyatı şəraitində ticarətdə səmərəliliyin effektliyinin artırılmasına nail olmaq üçün nəzərdə tutulmuş təşkilati-texniki tədbirlər onun nəzəri cəhətdən əsaslandırılmasınc, təhlil və qiymətləndirilməsini tələb edir. Buna görə də dissertasiya işinin qarşısında qoyulan problemlərin öyrənilməsi ticarətdə səmərəliliyin qiymətləndirilməsi metodoloji məsələləri üzərində ətraflı dayanmadan onun səmərəliliyinin göstəricilərini müəyyən etmək və təhlil etmək mühüm əhəmiyyət kəsb edir.

Ticarətdə səmərəliliyin daha düzgün qiymətləndirilməsi üzrə hesablamaya yeni bir mühüm göstəricilərin daxil olması zərurəti meydana çıxır. Bu göstərici isə istehsalın səmərəlilik göstəricisi olan rentabellikdir. Rentabelliyin əsas və dövriyyə fondlarına nisbəti kimi hesablanması üzrə əmsal səmərəlilik göstəricisi olmaqla ticarət təşkilatının keyfiyyət parametrlərini özündə əks etdirir.

Metodologiyanın düzgün seçilməsi və tətbiqi bütün sahələrdə, o cümlədən ticarət sferasında fəaliyyətin obyektiv təhlil və qiymətləndirilməsinin ən başlıca və mühüm şərtlərindən biridir. Metodologiya anlayışı iki sözün (metod və logiya) birləşməsindən yaranmışdır və hərfi mənası metodlar haqqında təlim deməkdir. Metodologiya istənilən fəaliyyətin ayrılmaz və zəruri komponentidir, çünki həmin fəaliyyətin özü dərketmə, öyrənilmə və rasionallaşdırma predmetinə çevrilir. Metodoloji bilik subyektin obyekti hərtərəfli təhlili və bundan lazımi nəticələr çıxarmaq üçün lazımdır. Metodoloji biliyin özü isə iki formada çıxış edir:

1) müəyyən növ fəaliyyətlərin məzmunu və ardıcıllığının təsbit edilmiş olduğu təlimatlar və normalar formasında;
2) faktiki yerinə yetirilmiş fəaliyyətlərin təfsiri formasında.

Birinci halda metodologiya normativ metodologiya kimi çıxış edir, ikinci halda isə – deskriptiv, yəni pozitiv metodologiya kimi. Hər iki halda həmin biliyin əsas funksiyası fəaliyyət obyektinin dərk edilməsinin, təhlili və öyrənilməsinin təşkili və tənzimlənməsini həyata keçirməkdir. Müasir uçot və təhlil ədəbiyyatlarında metodologiya adı altında adətən həm normativ (təlimat və normalar formasında olan), həm də pozitiv (təfsir formasında olan) metodologiyalar başa

düşülur. Ancaq qeyd etmək lazımdır ki, normativ metodologiya daha çox uçota aiddir. Bu da onunla bağlıdır ki, təsbitedici, yaxud təlimat, norma xarakterli strandartlar olmadan müqayisə oluna və təhlil edilə biləcək informasiya formalaşdırmaq mümkün deyil. Əgər vahid təlimat və standartlar olmazsa, onda işrkətlərin maliyyə vəziyyətini, maliyyə nəticələrini, ümumiyyətlə isə onların malik olduğu resurslardan nə dərəcədə səmərəli istifadə olunduğunu təhlil etmək və qiymətləndirmək də olmaz. Təsadüfi deyildir ki, bütün ölkələrdə uçotun aparılması və tənzimlənməsi üzrə qanunlar, əsasnamələr, standartlar və təlimatlar işlənib hazırlanır. Təhlil uçot və hesabatın formalaşdırdığı və digər mənbələrdən olan informasiyaya əsasən həyata keçirilir. Ancaq bu zaman təhlilin aparılması üçün təsbit edilmiş təlimatlar, normalar, yaxud standartlar yoxdur. Deməli, iqtisadi təhlilin aparılması daha çox pozitiv (deskriptiv) metodologiyaya əsaslanmalıdır. Pozitiv yanaşma əsasında təhlilin aparılması üçün istənilən metodu tətbiq etmək olar. Belə metodlara abstrakt təfəkkür, elmi düşüncə, induksiya, deduksiya, analiz, sintez, müqayisə, modelləşdirmə, riyazi metodları və s. aid etmək olmaz.

Pozitiv metodologiya elmi-praktiki tədqiqatların komponentlərinin – onların obyektlərinin, təhlilin predmetinin, vəzifələrinin, qarşıya qoyulmuş məsələlərin (problemlərin) həlli vasitələrinin (metodlarının) xarakteristikasını verir. Metodologiya həmçinin qoyulmuş problemin həll edilməsində təhlilçini hansı ardıcıllıqla hərəkət etməli olduğunu göstərir. Metodologiyanın və onun metodlarının seçilməsində mühüm məsələlərdən biri də problemin qoyuluşudur. Əgər problem düzgün seçilmirsə və vəzifələr dəqiq müəyyən olunmursa, onda metodoloji səhv qaçılmazdır. Bu halda tədqiqatın predmetini, onun metodologiyasını qurmaq, aparılan tədqiqin nəticələrinin obyektiv və real olmasına əmin olmaq qeyri-mümkündür.

Bazar münasibətləri şəraitində ticarət müəssisələrinin fəaliyyət göstərməsi üçün daim dəyişən bazar mühitindən asılı olaraq onun təhlilini həyata keçirmək zəruridir. Bu, kommersiya təşkilatının sabit mənfəət və rəqabətə davamlılığını və gələcəyi görməyə imkan verəcəkdir.

Ticarət müssisəsinin fəaliyyətini necə qiymətləndirmək və təhlil etmək üçün hər hansı bir kommersiya təşkilatı fəaliyyət sahəsindən asılı olmayaraq mənfəət və ya zərərlə işləməsindən asılı olmayaraq bazar mühiti ilə qarşılıqlı əlaqədə olan bir sistemdir. Təşkilatın fəaliyyətinin səmərəliliyini hərtərəfli qiymətləndirmək üçün göstəricilər sisteminin olması vacibdir.

Ticarətdə kommersiya işinin səmərəliliyinin ən mühüm göstəricisi mənfəətdir ki, onda müəssisənin bütün ticarət fəaliyyətinin nəticələri öz əksini tapır. Belə ki, satılmış malların həcmi, onun tərkibi və çeşid quruluşu, əmək məhsuldarlığı, xərclərin səviyyəsi, qeyri-məhsuldar xərclərin və itkilərin mövcudluğu dolğun öyrənilməsinin əsas şərtidir.

Yeni şəraitdə mal ehtiyatları daim hərəktədir və daim yeniləşir. Mal hərəkətinin son mərhələsi istehlakdır, həm də istehlak edilmiş əmtəələrin əvəzinə istehsal yenilərini göndərir. Ticarət müəssisələrində mal ehtiyatlarının tənzimlənməsi ilə bağlı məsələlər mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, ticarətdə effektliyin qiymətləndirilməsi, xərclərə ardıcıl olaraq qənaət edilməsi məqsədilə onların sistemli mühasibat uçot və operativ uçotunun səmərəli təşkilini tələb edir. Bununla yanaşı ticarətdə effektliyin düzgün qiymətləndirilməsi xərcləri ilə səmərə arasındakı nisbətin düzgün hesablanmasını daha vacib sayır.

Ticarətin iqtisadi səmərəliliyinin yüksəldilməsinin və kommersiya hesabının gücləndirilməsinin əsas və mühüm istiqamətlərindən biri kimi xərclərə qənaət edilməsi probleminə çoxlu sayda fundamental, mettodoloji və konseptual xarakterli elmi-tədqiqat işləri həsr edilmiş, nəzəri və praktiki əhəmiyyətə malik olan fikirlər söylənilmiş ideyalar irəli sürülmüş, M.I.Bakanov, A.D.Şeremet, L.I.Kravçenko, M.Q.Fatesiy, H.I.Namazəliyev, Q.Ə.Abbasov və başqaları tərəfindən əmtəə ehtiyatlarına edilən mütləq və nisbi qənaətin hesablanması metodikası riyazi baxımdan işlənib hazırlanmış və iqtisadi cəhətdən əsaslandırılmışdır.

FƏSİL II. BAZAR İQTISADİYYATI ŞƏRAİTİNDƏ TİCARƏT TƏŞKİLATINDA SƏMƏRƏLİLİYİN TƏHLİLİ

2.1. Ticarət təşkilatında ümumi gəlirin təhlili

Ümumi gəlir, mağazanın malların satışından əldə etdiyi və tədavül xərclərinin ödənilməsi və mənfəətin əmələ gəlməsi üçün nəzərdə tutulmuş ticarət güzəştlərinin məbləğindən ibarətdir. Mal dövriyyəsinə görə faizlə ifadə olunmuş ümumi gəlirin məbləği ümumi gəlir səviyyəsi adlanır.

Bazar iqtisadiyyatı şəraitində ümumi gəlirin təhlilinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- bütövlükdə mağaza, onun şöbələri və mal qrupları üzrə ümumi gəlir planının yerinə yetirilməsi dərəcəsinin müəyyən edilməsi;
- planın yerinə yetirilməsi dərəcəsinə ayrı-ayrı amillərin və səbəblərin təsirinin hesablanması;
- ümumi gəlirin artırılması ehtiyatlarının aşkara çıxarılması və onlardan istifadə edilməsi tədbirlərinin hazırlanması;
- mənfəətin planlaşdırılması üçün lazım olan məlumatların hazırlanması.

Yeni şəraitdə səmərəlilik göstəricisi olan ümumi gəlirin təhlili bütövlükdə müəssisələr, onun şöbələri, ayrı-ayrı mallar, mal qrupları və eləcə də rüb üzrə hesabat göstəricilərinin plan və ötən dövrün hesabat göstəriciləri ilə müqayisə etmək yolu ilə həyata keçirirlər. Zəncirvari yerdəyişmə metodunun tətbiqi ilə mal dövriyyəsinin həcminin və onun çeşid quruluşunun ümumi gəlir kəmiyyətinə təsiri ölçülür. Başqa səbəblərin təsirini aydınlaşdırmaq üçün satış hesabı üzrə analitik uçot məlumatlarından istifadə olunur. Bu hesabın debeti üzrə ümumi gəliri azaldan məbləğlər (şüşə qablar, elektrik məmulatları və s., təkrar emal üçün mal göndərənlərə qaytarılması ilə əlaqədar olan itkilər və s.) öz əksini tapır.

Maliyyə nəticələrinin təhlili adətən səmərəlilik göstəricisi olan ümumi gəlirin öyrənilməsindən başlanır. Ümumi gəlirin plan ölçüsü hər bir malın (mal qrupunun)

satılmasından ticarət güzəştlərinin hesablanması və alınmış nəticələrin cəmlənməsi yolu ilə təyin olunur. Hesabatı tərtib edən zaman malların satılmasından əldə edilən ümumi gəlir olduqca şərti, daha doğrusu satılmış və satılmamış mallar üçün ticarət güzəştlərinin orta faizi üzrə təyin olunur.

Mal dövriyyəsinin çeşid quruluşu mal qalıqlarının çeşid quruluşundan fərqlənir ki, bu da mal qalıqları və malların satışı üçün ticarət güzəştlərinin müxtəlif orta səviyyələrinin yaranmasına səbəb olur. Deyilənləri aydınlaşdırmaq üçün aşağıdakı formada analitik cədvəl tərtib edək.

Cədvəl 1

Univermağın mədəni mallar şöbəsində pərakəndə mal satışından əldə edilən ümumi gəlir planının yerinə yetirilməsinin təhlili (min manatla)

Mallar və mal qrupları	Ticarət güzəştinin faizi	plan		faktiki			
		Mal dövriyyəsi	Ümumi gəlir ($\frac{qr.2 \times qr.3}{100}$)	Mal dövriyyəsi	Ilin axırına mal qalığı	Satışdan əldə edilən ümumi gəlir ($\frac{qr.5 \times qr.2}{100}$)	Mal qalığı üçün ticarət güzəşti ($(\frac{qr.6 \times qr.2}{100})$
1	2	3	4	5	6	7	8
Saatlar	6,0	460	27,6	500	60	30,0	3,6
Şagird dəftərləri	8,0	45	3,6	40	5	3,2	0,4
Kağız və dəftərxana ləvazimatı	8,0	730	58,4	700	200	56,0	16,0
Musuqi malları	8,0	665	53,2	600	80	48,0	6,4
Minik avtomobilləri	1,5	300	4,5	700	40	10,5	0,6
Başqa mallar	6,41	5600	355,6	5485	1140	348,3	72,4
Yekunu		7800	502,9	8025	1525	496,0	99,4
Ticarət güzəştinin orta faizi			6,45			6,18	6,52

Cədvəl məlumatlarından göründüyü kimi, satılmış mallar üçün ticarət güzəştlərinin orta səviyyəsi qalıqlar üzrə səviyyəsindən 0,33% (6,52-6,18) aşağıdır. Hesabatların tərtibi zamanı tətbiq olunan metodika üzrə hesablanmış ticarət güzəştlərinin orta səviyyəsi 6,24 $\left[\frac{(496+99,4)\cdot 100}{8025+1525}\right]$ olmuşdur (kəsrin surəti ticarət

güzəşti hesabının ilkin qalığıdır, daha doğrusu, reallaşdırılmış ticarət güzəşti silinənə qədərki qalıqdır).

Ticarət güzəştlərinin orta faizi 6,24 olduqda 8025 min manatlıq mal satışından əldə edilən ümumi gəlir 500,4 min manat təşkil etmişdir, planlaşdırmada tətbiq olunan metodika üzrə isə (mal dövriyyəsinin çeşid quruluşu nəzərə alınmaqla) 496 min manat olmuşdur. Beləliklə, ticarət güzəştinin orta səviyyəsi tətbiq edilməsi nəticəsində ümumi gəlir 4,4 min manat artırılmış (şişirdilmiş) olur (500,4 – 496,0). Satışdan əldə edilən ümumi gəlirin plan və hesabat üzrə hesablanması zamanı vahid metodikadan istifadə olunmalıdır.

Zəncirvari yerdəyişmə metodundan istifadə etməklə ümumi gəlirin kəmiyyətinə ayrı-ayrı amillərin (mal dövriyyəsinin həcmi, onun quruluşu) təsirini təyin etmək lazımdır.

Ümumi gəlirin miqdarını aşağıdakı düstur şəklində ifadə edək:

$$\text{Ümumi gəlir} = \frac{\text{mal dövriyyəsi} \times \text{ticarət güzəştinin orta faizi}}{100}$$

Plan göstəricisinin yerinə ardıcıl surətdə faktiki qiymətləri qoymaqla hər bir addımdan sonra ümumi gəlirin dəyişməsini (fərqi) təyin edək:

1. Plan göstəriciləri ilə hesablanmış ümumi gəlir: $\frac{7800 \times 6{,}45}{100} = 502{,}9$ min manat.

2. Faktiki mal dövriyyəsi və mal dövriyyəsinin plan üzrə çeşid quruluşuna görə hesablanmış ticarət güzəştlərinin orta səviyyəsi: $\frac{8025 \times 6{,}45}{100} = 517{,}6$ min manat təşkil etmişdir.

İkinci göstəricidən birinci göstəricini çıxsaq mal dövriyyəsinin artması nəticəsində ümumi gəlirin artmasını 14,7 min manat (517,6 – 502,9) alarıq.

3. Bütün göstəricilər faktiki olduqda ümumi gəlir 496 min manat ($\frac{8025 \times 6{,}18}{100}$) təşkil etmişdir.

Üçüncü göstəricidən ikincini çıxsaq (496 – 517,6 = -21,6 min manat) dövriyyədə aşağı ticarət güzəşti faizinə malik olan malların (saatlar və avtomobillər) xüsusi çəkisinin artması nəticəsində ümumi gəlirin azalmasını alarıq.

Mühasibat hesabtlarının məlumatlarına görə satışdan əldə edilən ümumi gəlir 521,5 min manat təşkil etmişdir, lakin o, orta faizə görə (4,4) hesablandığından və hesabatda buraxılmış xətalar nəticəsində 4,7 min manat şişirdilmişdir. Planlaşdırma zamanı tətbiq olunan metod üzrə hesablanmış faktiki ümumi gəlir 516,8 min manat (521,5 – 4,7) təşkil edəcəkdir. Buradan da belə nəticəyə gəlmək olar ki, planla müqayisədə faktiki ümumi gəlir 13,9 min manat (516,8 – 502,9) artmışdır.

Lakin ümumi gəlirin miqdarına da mənfi amillər təsir edir. Həmin amillərə aiddir: satış hesabının debeti üzrə mövsümi ucuzlaşdırma üçün 4,5 min manat silinməsi, malların tranzit və anbardan daşınması planının 100 min manat kəsirlə yerinə yetirilməsi; dövriyyədən aşağı ticarət güzəştinə malik malların xüsusi çəkisinin artması (21,6 min manat).

Ümumiyyətlə göstərdiyimiz amillər hesabına ümumi gəlir 27,5 min manat azalmışdır. Plandan artıq ümumi gəlirin 13,9 min manat olduğunu bilərək digər amillərin ümumi gəlirin artmasına təsirini yekun məbləği (27,5+13,9), o cümlədən mal dövriyyəsi həcminin artması – 14,7 min manat, ticarət güzəştləri normasının yüksəldilməsi – 5,5 min manat, müxtəlif səviyyəli ticarət güzəştli malları birləşdirən mal qrupları üzrə çeşid quruluğunun dəyişilməsi – 21,2 min manat (41,4 – 14,7 – 5,5) olmuşdur.

Səmərəlilik göstəricisi olan ümumi gəlirin təhlili zamanı nəzərə almaq lazımdır ki, uşaq evlərinə, xəstəxanalara, uşaq bağçalarına ərzaq mallarının xırda topdan buraxılışı xırda topdan güzəştləri verilməklə həyata keçirilir ki, bu da ümumi gəliri azaldır. Bu amilin ümumi gəlir məbləğinə təsirini təyin etmək üçün faktiki xırda topdan dövriyyənin plandan kənarlaşmasını xırda topdan güzəştinin faizinə vurub yüzə bölmək lazımdır.

Ümumi gəlirin təhlilinin nəticələri üzrə təsərrüfat fəaliyyətinin digər göstəiciləri də nəzərə alınmaqla nəticə və təkliflər hazırlanır. Cədvəlin məlumatlarından görünür ki, ticarət güzəştlərinin orta faizi mal dövriyyəsində avtomobil satışının xüsusi çəkisinin artması ilə əlaqədar olaraq azalmışdır. Əgər başqa göstəricilərin təhlili nəticələri nəzərə alınmazsa mal dövriyyəsinin tərkibində ticarət güzəştlərinin yüksək səviyyəsinə malların xüsusi çəkisinin artırılması tələb olunur. Lakin yüksək ticarət güzəştli malların heç də hamısı yüksək rentabelliyə malik olmur. Məsələn, duz üzrə ticarət güzəşti mal dövriyyəsinə görə 25%, tədavül xərcləri – 39,4 və zərərlər 14,4% təşkil edir.

Ümumi gəliri və rentabelliyi yüksəltmək cəhdi əhalinin tələbatının daha tam təmin edilməsi vəzifəsi ilə ziddiyyət təşkil etməməlidir, daha doğrusu, əgər əhalinin tələbatının kifayət qədər ödənilməsinə səbəb olarsa, aşağı rentabellik səviyyəsinə malik olan malların mal dövriyyəsində xüsusi çəkisi azaldılmamalıdır. Mal dövriyyəsinin çeşid quruluşunun dəyişilməsinə dair təkliflər əhalinin tələbatının, inventarlaşdırma siyahıları üzrə mal qalıqlarının tərkibinin, ayrı-ayrı malların satılmasındakı fasilələr və ayrılmış mal fondlarının həcminə dair məlumatların öyrənilməsi əsasında qurulmalıdır.

Ümumi gəlirin və rentabelliyin artırılması məqsədilə əsas malların çeşidinin genişləndirilməsini, malların danışması, saxlanması və satılmaq üçün hazırlanmasının və onların satılmasının səmərəli təşkili yolu ilə ümumi gəlirin azaldılması üçün müxtəlif silinmələrin ixtisar edilməsini, tranzit daşımalarının həcminin yüksəldilməsini və malların anbar danışmasının ixtisar edilməsini təklif etmək olar. Lakin ümumi gəlirin yüksəldilməsinin mühüm ehtiyatı mal dövriyyəsinin artımı olmalıdır.

2.2. Xərclərin tərkibi, dinamikası və strukturunun təhlili

Bazar iytisadiyyatı şəraitində iqtisadiyyatda keyfiyyət dəyişikliklərinin zəruriliyi, onun bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən iqtisadi istehsalın səmərəliliyinin artırılması və bütün növ resurslardan maksimal səmərəliliklə istifadə olunması kimi bir sıra mühüm məsələləri irəli sürmüşdür. Bunun üçün mövcud təşkilati-iqtisadi ehtiyatları aşkar etmək, artıq xərclərin və itki halarının qarşısının alınması yolunda mühüm tədbirlər görmək tələb olunur.

Yeni şəraitdə xərclərin həcminin aşağı salınması üçün onların idarə edilməsinin ən mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.

Malların son istehlakçılara çatdırılması müəyyən miqdarda canlı və əşyalaşmış əmək xərclərini tələb edir. Bu baxımdan işçi və qulluqçuların əməyinin ödənilməsi, malların nəql edilməsi, saxlanması, onların satışa hazırlanması, satınalınmasının təşkili və realizə edilməsi, ticarət təşkilatının və müəssisələrinin idarə edilməsi, kargüzarlığın və uçotun aparılması bir çox sair məsrəflərlə şərtlənir.

Beləliklə, xərclər dedikdə malların istehsaldan son istehlakçıya çatdırılması ilə əlaqədar olan canlı və əmək məsrəflərinin pulla ifadəsi başa düşülür.

Ticarətdə yeni şəraitində xərclərin öyrənilməsi, onların düzgün təhlil edilməsi təşkilatın müəyyən şərtləri daxilində çox mühüm əhəmiyyət kəsb edir. Hər bir təşkilatın fəaliyyətinin son nəticələri, onun rəqabətə davamlılığı əhəmiyyətli dərəcədə həmin təşkilatın istehsalat xərclərindən asılıdır. Bu baxımdan xərclərin düzgün təşkil olunmuş təhlili onların aşağı salınması ehtiyatlarının aşkar etməyə imkan verir və bütün növ ehtiyatlardan daha səmərəli istifadə etməyə əlverişli şərait yaradır. Ticarət təşkilatının xərclərinin idarə edilməsinin səmərəliliyini artırmaq üçün bu xərclərin hər bir maddəsi üzrə təhlilin aparılması mühüm əhəmiyyət kəsb edir. Bu cür təhlilin aparılması xərc maddələrinin aşağı salınması və daxili ehtiyat mənbələrinin aşkar edilməsinə şərait yaradır.

Bazar iqtisadiyyatı şəraitində xərclərin təhlili xərclərin səviyyəsi, quruluşu, dinamikasının öyrənilməsilə başlanır. Sonra təhlil ayrı-ayrı mal qrupları, xərc

maddələri üzrə aparılır. Həmin xərclərin dəyişməsinə təsir edən amillər və onların təsir dərəcəsi hesablanılır və qiymətləndirilir. Daha sonra xərclərin aşağı salınması yolları öyrənilir.

Bazar iqtisadiyyatı şəraitində xərclər ümumi ictimai-zəruri xərclər şəklində özünü göstərir. Bu cür xərclərə malların istehlakçılara çatdırılması və realizə edilməsi, alqı-satqı proseslərinin ictimai-normal şəraitdə işçilərin əmək intensivliyinin orta səviyyəsi, ticarət qaydalarına, o cümlədən ticarət xidmətləri keyfiyyətlərinin öncədən müəyyən edilmiş tələblərinə riayət edilməsi şəraitində baş verən xərclər aiddir. Deməli, xərclərin heç də hamısını ictimai-zəruri xərclərə aid etmək olmaz. Bu cür məsrəflərə təsərrüfatsızlıq nəticəsində baş vermiş məsrəflər və itkilər, debitor borclarının vaxtında ödənilməməsi səbəbindən əmələ gələn itkilər, təsərrüfat müqavilələrinin vaxtında yerinə yetirilməməsi nəticəsində ödənilən cərimələr və bu kimi sair xərcləri misal göstərmək olar.

Yeni şəraitdə ticarət müəssisələrinin xərcləri ümumi və səviyyə göstəriciləri ilə müəyyən olunur. Xərclərin səviyyəsi ticarətin təsərrüfat fəaliyyətinin mühüm iqtisadi göstəricisidir. Bu göstərici satılıq məhsulun ümumi dəyərində xərclərin səviyyəsini göstərir.

Xərclərin aşağı salınması ticarət müəssisələrində bazarda özünün qiymət siyasətini həyata keçirməyə və digər şərtlər eyni olduqda daha yüksək mənfəət götürməyə imkan verir. Lakin təhlil prosesində nəzərə almaq lazımdır ki, xərclərin aşağı salınması heç də ticarət və əhaliyə xidmət mədəniyyəti səviyyəsinin aşağı salınması, pisləşməsi hesabına olmamalıdır.

Xərclərin təhlilinin qarşısında duran vəzifələr təkcə planın yerinə yetirilməsinin müəyyən edilməsi və smetaya əməl olunmasının obyektiv qiymətləndirilməsi deyil, həmçinin xərclərin azaldılması ehtiyatlarının müəyyən edilməsi, səmərəsiz xərclərin, təsərrüfatçılıq, israfçılıq hallarının aradan qaldırılması yolu ilə xərclərin optimal istifadə ölçülərinin işlənib hazırlanması, əmək və vəsaitlərin daha qənaətcil, faydalı, sərfəli və məqsədyönlü istifadə olunmasını təmin etməkdir.

Təhlil prosesində xərclərin dinamikasını müəyyən etmək və bu xərclərə təsir göstərən başlıca amillərin təsirini aşkara çıxarmaq və müəyyən etmək vacibdir. Nəzərə almaq lazımdır ki, xərclər üzrə məsrəflər iqtisadi əlamətlərinə görə aşağıdakı beş qrup üzrə təsnifləşdirilir:

1. Əməyin malli və mənəvi ödənilməsi üzrə məsrəflər;
2. Digər təsərrüfat sahələrinin ticarət fəaliyyətinə göstərdiyi xidmətlər üzrə məsrəflər (kommunal təsərrüfatı, nəqliyyat təsərrüfatı, bank sistemi, rabitə sistemi və s.);
3. Ticarət prosesində istehlak olunan (istifadə edilən) maddi vəsaitlərin, o cümlədən əsas kapitalın (binaların, avadanlığın və s.), habelə hər cür əmək alətlərinin amortizasiyası, qablaşdırma materiallarının dəyəri, enerji daşıyıcıları (elektrik enerjisi, yanacaq və s.) üzrə maddi itkilər və s.;
4. Malların yüklənib daşınması, saxlanılması və satışı prosesində baş verən itkilər;
5. Sair məsrəflər.

Xərclərin səviyyəsi ticarətin təsərrüfat fəaliyyətinin mühüm iqtisadi göstəricilərindən biridir. Onun vasitəsi ilə təhlil prosesində xərc tutumu, xərc verimi və xərclərin rentabelliyi müəyyən edilir.

$$T_S=\frac{T_x \times 100}{M_d}$$

Burada M_d – mal dövriyyəsinin həcmi, T_x –xərclərin məbləğidir. Bu göstərici məcmu xərclərin və ayrılıqda hər bir xərc növünün məcmu mal dövriyyəsinə nisbətini göstərir.

Xərclər həm də səmərəlilik göstəricisidir. Bu baxımdan o, üç göstərici ilə ifadə olunur: xərc tutumu, xərc verimi və xərclərin rentabelliyi.

Xərc tutumunun səviyyəsi tədavül xərcləri məbləğinin mal dövriyyəsinə nisbəti kimi hesablanılır. Xərc tutumu və ümumən xərclərin tədavül xərclərinin səviyyəsi göstəricilərinin hər ikisi mühüm keyfiyyət göstəricisi kimi çıxış edirlər.

Xərcverimi səviyyəsi. Bu göstərici xərclərin hər vahidinə düşən mal dövriyyəsi həcminin məbləğini xarakterizə edir və aşağıdakı kimi hesablanır:

$$X_v=\frac{M_d}{T_x}$$

Burada X_v – xərc verimidir.

Xərclərin rentabellik səviyyəsi mənfəət məbləğinin xərclərinin həcminə olan nisbəti kimi xarakterizə edilir:

$$X_r=\frac{M}{T_x}$$

Burada X_r – tədavül xərclərinin rentabelliyi; M – mənfəətin həcmidir.

Müxtəlif ticarət müəssisələrində xərclərin təhlilinə adətən faktiki məlumatların plan məlumatları ilə və keçmiş dövrün müvafiq məlumat göstəriciləri ilə müqayisə edilməsi ilə başlanılır. Tədavül xərclərinin faktiki və plan məbləğlərinin arasındakı fərq «mütləq kənarlaşması» özündə əks etdirir (qənaət, yaxud artıq xərc). Lakin mütləq göstəricilər əsasında planın yerinə yetirilib-yetirilməməsinə və onların dinamikasına obyektiv qiymət vermək mümkün deyil. Qeyd etmək lazımdır ki, mal dövriyyəsinin həcmi artdıqda müvafiq olaraq xərclərin səviyyəsidə yüksəlir və əksinə, mal dövriyyəsinin səviyyəsinin aşağı düşməsi xərclərin azalmasına səbəb olur.

Müvafiq olaraq ticarət məsrəflərinin təhlilini mal dövriyyəsinin öyrənilməsi ilə əlaqələndirmək lazımdır. Daha doğrusu, xərcləri onların ümumi məbləğinə görə deyil, mal dövriyyəsinə görə faizlə miqdarı ilə qiymətləndirmək lazımdır. Xərclərin səviyyəsindəki kənarlaşmalar (plan, yaxud keçmiş dövrlərin müvafiq göstəricilərindən) onların səviyyəsinin aşağı düşməsi, yaxud yüksəlməsi ölçüsü adlanır. Bu göstərici məsrəflərin faktiki səviyyəsinin mal dövriyyəsinə görə faizlə məbləğinin bazis göstəricisindən (plan, yaxud keçmiş dövrlərin məlumatlarından) nə qədər artıq və ya əskik olduğunu əks etdirir. Xərclərin səviyyəsinin yüksəlməsi, yaxud onun azalması ölçüsünün bazis dövrünün müvafiq məbləğinə faizlə nisbətinə xərclərin səviyyəsinin dəyişmə sürəti deyilir. Dəyişmə sürəti hesabat dövrünün xərclərin faktiki səviyyəsinin bazis dövrünə nisbətən (plan, yaxud

keçmiş dövrün faktiki səviyyəsi 100% qəbul olunarsa) neçə faiz artması, yaxud azalmasını özündə əks etdirir.

Xərclərin təhlilini aparmamışdan əvvəl istifadə olunan informasiyanın etibarlığını və dəqiqliyini müəyyən etmək lazımdır. Xüsusilə məsrəflərin xərclərə aid edilməsinin əsaslandırılmasını və tamlığını, qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatların vaxtında və düzgün əlavə olunmasını, «Gələcək dövrlərin xərcləri» hesabına məbləğlərin yazılmasını, mal qalığı üçün xərclərin hesablanmasının düzgünlüyünü tədqiq etmək lazımdır.

Xərclərin dəyişilməsinin dinamikasını öyrənərkən bu məlumatların ancaq keçən ilə yox, həm də əvvəlki illərlə də müqayisə etmək lazımdır. Xərclərin təhlilini apararkən istifadə edilən məlumatların düzgün və dəqiqliyi də yoxlanılmalıdır. Qapalı səhmdar cəmiyyətinin «Mərkəzi univermağı» hesabat ilindəki xərclərini təhlili edərkən aşağıdakı cədvəl məlumatlarından istifadə edək.

Cədvəl 2

«Mərkəzi Univermaq» üzrə xərclərin təhlili

Göstəricilər	Keçən ilin həqiqi göstə-ricisi	Hesabat ili		Plandan kənar-laşma mütləq rəqəmlə	%-lə	Keçən ilə nisbətən kənarlaşma +, -	
		plan	həqiqi			Mütləq rəqəmlə	%-lə
1. Mal dövriyyəsi (min manat)	10009,0	212391,0	213441,0	+1050,0	+0,50	+203432,0	2,34
2. Xərclərin məbləği	233,7	4884,9	4695,7	-189,2	-3,87	+4462,0	+19,1
3. Tədavül xərclərinin səviyyəsi (%-lə)	2,34	2,30	2,20	-0,10	-4,35	-0,014	-5,98

Cədvəl məlumatlarından görünür ki, univermaq üzrə hesabat ilində mal dövriyyə planı 1050 min manat (212391,0–213441,0) və ya 0,50% (1050 : 212391 ×100) artıqlaması ilə yerinə yetirilmişdir. Xərclərin məbləği isə plana qarşı 189,2 min manat (4695,7 – 4884,9) və ya 3,87% (189,2 : 4884,9 × 100) azalmışdır. Xərclərin səviyyəsi isə planda nəzərdə tutulduğundan 0,10% (2,20 – 2,30) aşağı olmuşdur.

Keçən illə müqayisədə mal dövriyyəsinin həcmi 203432,0 min manat (213441 – 10009) artmışdır. Xərclər isə keçən ildəkindən 4462,0 min manat (4695,7 – 233,7) çox olmuşdur. Nəticədə xərclərin səviyyəsi keçən ilə nisbətən hesabat ilində 0,4 punkt (2,20 – 2,34) aşağı düşmüşdür.

Xərclərin planının yerinə yetirilməsini təhlil edərkən, hər şeydən əvvəl, xərclərin nəyin hesabına qənaət edilməsinə fikir vermək lazımdır. Belə ki, əgər xərclərə əmək haqqı xərc məbləğinin azalması hesabına qənaət edilməsinə, bu heç də ticarət təşkilatının fəaliyyəti üçün müsbət hal deyildir. Bu ondan irəli gəlir ki, əmək haqqı xərclərinə və reklam xərclərinə əsassız qənaət edilməsi, nəticə etibarilə əməyin səmərəliliyinin stimullaşdırılmasına və mal dövriyyəsinin həcminə mənfi təsir göstərir.

Qeyd etmək lazımdır ki, univermaqda xərclər planının yerinə yetirilməsini təhlil edərkən görünür ki, univermaqda bu istiqamətdə edilən qənaət əmək haqqının və reklam xərclərinin azaldılması hesabına deyil, mal dövriyyəsinin plana qarşı artması əmək məhsuldarlığının yüksəldilməsi və əsas vəsaitlərdən daha səmərəli istifadə edilməsi hesabına əldə olunmuşdur.

Xərclərin təhlili işini sistemləşdirmək məqsədi ilə onlar xərc maddələri üzrə təsnifləşdirilir. Xərc maddələri bütövlükdə xərclərin maddələr nomenklaturunu (ümumi siyahısını) əmələ gətirir. Ticarət müəssisələri, firmalar üçün maddələrdən ibarət olan xərc maddələrinin siyahısı (nomenklaturu) aşağıdakıları əhatə edir:

- əməyin ödənilməsi üzrə məsrəflər;
- malların nəql edilməsi xərcləri;
- əsas kapitalın (əsas fondların) icarə edilməsi və saxlanılması üzrə xərclər;
- əsas kapitalın və qeyri-material aktivlərinin tam bərpası üçün amortizasiya ayırmaları;
- əsaslı təmir üçün amortizasiya ayırmaları və əsas kapitalın cari təmiri üzrə xərclər;
- azqiymətli və tezköhnələn əşyaların saxlanılması və daşınması;
- istehsal ehtiyatları üçün yanacaq, qaz və elektrik enerjisi xərcləri;

– malların saxlanılması, çeşidlənməsi, işlənilməsi, qablaşdırılması üçün xərclər;
– reklam xərcləri;
– kredit üzrə faizlər;
– daşınması, saxlanılması və satışı zamanı «təbii itkilər» norması daxilində mal itkiləri;
– tara üzrə xərclər;
– sosial ehtiyaclar üzrə ayrılmalar;
– əmlakın sığorta olunması üzrə xərclər;
– sair xərclər.

Onu da qeyd etmək lazımdır ki, ticarət firmaları, müəssisələrin hamısı üçün bu siyahıda göstərilən bütün maddələr üzrə öz məcmu xərclərinin uçotunun aparılması, onların planlaşdırılması hökm deyil. Hər bir müəssisə özünün istəyinə və imkanına görə həmin maddələrin bəzisini digəri ilə birgə planlaşdıra bilər.

Xərclərin strukturu dedikdə həmin xərclərin ümumi həcmində ayrı-ayrı xərc maddələrinin payı (faiz hesabı ilə xüsusi çəkisi) nəzərdə tutulur. Xərclərin iqtisadi təhlilində və onların planlaşdırılımasında onların strukturundan istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Yeni şəraitdə xərclərin rolu və əhəmiyyəti daha da artır. Xərclərin dinamikasını təhlil etməklə son illərdə ticarət təşkilatında baş vermiş xərclərin səviyyəsini və bu xərclərin dəyişmə meylini müəyyənləşdirmək mümkün olur. Qeyd etmək lazımdır ki, xərclərin strukturu və dinamikasının mütləq rəqəmlər üzrə təhlil etmək tam düzgün nəticə çıxarmağa imkan vermir. Bu məqsədlə xərclərin mal dövriyyəsinə nisbəti göstəricilərini də, yəni xərclərin səviyyəsini və bu göstəricinin illər üzrə dinamikasını təhlil etmək məqsədəuyğundur.

Hesabat ilində əvvəlki son 4 ildə fəaliyyətini təhlil etdiyimiz univermaqda xərclərin səviyyəsini xarakterizə edən göstəricilər sistemini nəzərdən keçirək və lazımi hesablamaları aparaq.

Cədvəl 3

Xərclərin səviyyəsinin təhlili (min manatla)

	2012-ci il			2013-cü il			2014-cü il			2015-ci il		
	plan	hesabat	kənarlaşma +,-	plan	hesabat	kənarlaşma +,-	plan	hesabat	kənarlaşma +,-	plan	hesabat	kənarlaşma +,-
1.Mal dövriyyəsi (m.m.)	9111,2	9231,7	+120,5	9221,4	9321,9	+100,5	10000	90009	+9,0	212391	213441	+1050
2.Tədavül xərcləri məbləği	202,9	205,3	+2,4	212,9	215,3	+2,4	229,0	2337	+4,7	4884,9	4695,7	-189,2
3. Xərclərin səviyyəsi(%-lə)	2,23	2,22	-0,01	2,31	2,31	-	2,29	2,34	+0,9	2,30	2,20	-0,10

Cədvəl məlumatlarından göründüyü kimi 2015-ci ildə mal dövriyyəsi o biri illərə nisbətən daha çox olmuşdur. Bu hər şeydən əvvəl pərakəndə qiymətlərin sərbəstləşməsi və nəticədə xeyli yüksəlməsi ilə əlaqədar olmuşdur. Qiymətlərin qalxması eyni zamanda tədavül xərclərinin də həcminin artmasına səbəb olmuşdur. 2014-cü il ilə müqayisədə həm mal dövriyyəsi və həm də xərclər 20 dəfədən çox artmışdır. Lakin xərclərin səviyyəsi əvvəlki illərə nisbətən xeyli aşağı düşmüşdür. Belə ki, xərclərin səviyyəsi 2012-ci ildə 2,22%, 2013-cü ildə 0,31%, 2014-cü ildə 2,34% təşkil etdiyi halda, 2015-ci ildə 2,20% olmuşdur. Xərclərin ümumi səviyyəsini təşkil etmək üçün onun strukturunun müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Xərclərin strukturunun müəyyən edilməsi üçün ayrı-ayrı xərc maddələri üzrə dinamik göstəricilərdən istifadə olunur.

Digər sahələrdə olduğu kimi, ticarətdə də göstəricilərin vaxt etibarı ilə dəyişilməsini aşkar etmək üçün dinamika göstəricilərindən istifadə olunur. Dinamika sıralarında bir və ya bir neçə müəssisə və təşkilatın iqtisadi göstəricilərinin iki ildə – 2014 və 2015-ci illərdə dəyişməsini əyani şəkildə təhlil etmək mümkündür.

Hesabat ilindən son iki idə fəaliyyətini təhlil etdiyimiz univermaqda xərclərin səviyyəsini xarakterizə edən göstəricilər sistemini nəzərdən keçirək və lazımi hesablamaları aparaq (2014-cü il üzrə).

Cəvdəl 4

Xərclər planının yerinə yetirilməsinin təhlili

2014-cü il üzrə

№	Göstəricilər	plan	hesabat
1.	Pərakəndə mal dövriyyəsinin həcmi (min manat)	10000,0	10009,0
2.	Pərakəndə mal dövriyyəsi üzrə planın icrası (faizlə)	x	100,1
3.	Xərclərin məbləği (min manat)	229,0	233,7
4.	Xərclər üzrə mütləq qənaət və ya artıq xərc (min manat)	x	+4,7
5.	Mal dövriyyəsinə nisbətən xərclərin səviyyəsi (sətir 3 : sətir 1 ×100) (faizlə)	2,29	2,34
6.	Xərclərin planda nəzərdə tutulduğundan aşağı düşməsi və ya yüksəlməsi (faizlə)	x	+0,05
7.	Xərclərin dəyişən hissəsi (min manat)	173,3	176,9
8.	Xərclərin nisbi sabit hissəsi (min manat)	55,7	56,8
9.	Mal dövriyyəsi üzrə planın icrasından asılı olaraq xərclərin plan səviyyəsinə düzəliş verilməsi 173,3×100,1:100=173,5		
10.	Xərclərə düzəliş verildikdən sonra mal dövriyyəsinə nisbətən xərc səviyyəsi 229,2×100:10009,0=2,29%		
11.	Xərclərə həqiqi qənaət və ya artıq xərc 233,7 – 229,2 =+4,5 min manat		
12.	Nisbi səviyyə etibarilə qənaət və ya artıq xərc 2,34 – 2,29=+0,05%		

Cəvdəl 5

Xərclər planının yerinə yetirilməsinin təhlili

2015-ci il üzrə

№	Göstəricilər	plan	hesabat
1.	Pərakəndə mal dövriyyəsinin həcmi (min manat)	212391,0	213441,0
2.	Pərakəndə mal dövriyyəsi üzrə planın icrası (faizlə)	x	100,5
3.	Xərclərin məbləği (min manat)	4884,9	4695,7
4.	Xərclər üzrə mütləq qənaət və ya artıq xərc (min manat)	x	-189,2
5.	Mal dövriyyəsinə nisbətən xərclərin səviyyəsi (sətir 3 : sətir 1 ×100) (faizlə)	2,30	2,20
6.	Xərclərin planda nəzərdə tutulduğundan aşağı düşməsi və ya yüksəlməsi (faizlə)	x	+4,3
7.	Xərclərin dəyişən hissəsi (min manat)	3663,7	3521,8
8.	Xərclərin nisbi sabit hissəsi (min manat)	1221,2	1173,9
9.	Mal dövriyyəsi üzrə planın icrasından asılı olaraq xərclərin plan səviyyəsinə düzəliş verilməsi 3663,7×100,5:100=3682,0 3682,0+1221,2=4903,2 min manat		
10.	Xərclərə düzəliş verildikdən sonra mal dövriyyəsinə nisbətən xərc səviyyəsi 4903,7×100:213441,0=2,30%		
11.	Xərclərə həqiqi qənaət və ya artıq xərc 4695,7 – 4903,2 =207,5 min manat		
12.	Nisbi səviyyə etibarilə qənaət və ya artıq xərc 2,20 – 2,30= - 0,10%		

Yuxarıdakı cədvəldə apardığımız hesablamaların nəticələrini aşağıdakı cədvəldə ümumiləşdirək.

Cəvdəl 6

№	Göstəricilər	2014-ci il	2015-ci il
1.	Xərclərə həqiqi qənaət və ya artıq xərc: mütləq ifadədə (min manatla) nisbi səviyyə etibarilə (faizlə)	 4,5 +0,05	 -207,5 -0,10

Verilmiş cədvəl məlumatları hesabat ilindən təhlil etdiyimiz univermağın xərclər üzrə əldə edilmiş həqiqi qənaət və ya yol verilmiş həqiqi artıq xərci xarakterizə edir. Göründüyü kimi, 2015-ci il istisna olunmaqla 2014-cü ildə xərc üzrə artıq xərcə yol verilmişdir. 2015-ci il üzrə xərclər üzrə mütləq qənaət əldə edilmişdir. Eyni zamanda nisbi qənaət əldə edilmişdir. Bu qənaət 2015-ci ildə 0,10% təşkil etmişdir.

Mal dövriyyəsinin strukturunun xərclərin səviyyəsinə təsirini müəyyən etmək üçün plan və hesabat məlumatları üzrə ayrı-ayrı mal qruplarının ümumi mal dövriyyəsindəki xüsusi çəkilərini müvafiq mal qrupları üzrə xərclər səviyyəsi normasına vurub, alınan nəticəni müqayisə etmək lazımdır. Deyilənləri nəzərə alaraq, univermağın 2015-ci ilin rəqəm məlumatlarına əsasən nəzərdən keçirək.

Cədvəl 7

Mal dövriyyəsinin strukturuna tədavül xərc səviyyəsinə təsirinin təhlili

Mal qruplarının adı	Mal dövriyyəsinin strukturu		Tədavül xərclərinin plan səviyyəsi	Plan strukturuna görə (qr.2×qr.4)	Həqiqi strukturuna görə (qr.3×qr.4)
	plan	hesabat			
1	2	3	4	5	6
1. Parça	17	19	3,4	57,8	64,6
2. Ayaqqabı	7	6	3,8	26,6	22,8
3. Xırdavat	11	12	3,9	42,9	46,8
4. Təsərrüfat malları	21	20	3,2	67,2	64
5. Baş geyimləri	16	18	3,1	49,6	55,8
5. Sair mallar	28	25	3,6	100,8	90
Yekunu	100	100	-	344,9	344

Cədvəl hesablamalarından görünür ki, tədavül xərclərinin plan səviyyəsi 3,449% (344,9:100) olduğu halda, mal dövriyyəsi strukturunun dəyişməsi ilə əlaqədar olaraq 3,44% (344:100) təşkil etmişdir. Başqa sözlə desək, mal dövriyyəsi strukturunun dəyişməsi hesabına tədavül xərcləri üzrə 0,009% (3,440 – 3,449) və ya -0,009×2826 = -25,4 min manat qənaət edilmişdir.

2.3. Ticarət təşkilatında mənfəətin formalaşması və istifadəsinin təhlili

Yeni şəraitdə ticarət təşkilatının maliyyə təsərrüfat fəaliyyəti nəticələrinin ümumiləşdirilmiş göstəricisi mənfəətdir. Eyni zamanda məlumdur ki, hər bir qapalı səhmdar cəmiyyətlərinin nəzdində fəaliyyət göstərən univermaqların əsas məqsədi mənfəət əldə etməkdən ibarətdir.

Mənfəət üzrə alının yerinə yetirilməsini təhlil etməzdən əvvəl mənfəətə dair plan döstəricilərinin reallığını təyin etmək lazımdır. Ticarətdə mənfəəti öyrənərkən malların satışından olan mənfəəti (ümumi gəlir, bütün tədavül xərcləri) və ümumi mənfəəti (balans mənfəətinin ticarət mallarının satışından olan mənfəət) başqa gəlirlər – xərclər, itkilər və zərərlər təyin edilir. Təhlil prosesində mənfəət planının yerinə yetirilməsi dinamikası öyrənilir, ona təsir edən amillərin təsir dərəcəsi hesablanır. Malların satışından olan mənfəət mal dövriyyə həcmini dəyişilməsindən, ümumi gəlirin orta səviyyəsinin dəyişilməsindən asılıdır. Daha doğrusu, mal dövriyyə planının yerinə yetirilməsinin təsir dərəcəsini hesablamaq üçün onun həcmi üzrə plandan kənarlaşmasını malların satışından olan mənfəətin plan səviyyəsinə vurmaq və 100-ə bölmək lazımdır. Ümumi gəlirin və tədavül xərclərinin orta səviyyələrinin dəyişilmələrinin təsirini mal dövriyyəsinin həqiqi həcmini onlar üzrə plandan kənarlaşmaya vurmaqla 100-ə bölünür. Eyni zamanda mənfəətə planlaşdırılmayan gəlir və itkilər, balans mənfəəti təsir göstərir.

Qapalı səhmdar cəmiyyətinin Mərkəzi Univermağı və Bakı Univermağının satışdan əldə edilən mal dövriyyəsi həcminin və rentabellik səviyyəsinə təsirini aşağıdakı cədvəl vasitəsi ilə müəyyən edək.

Satışdan əldə edilən mənfəətə mal dövriyyəsinin həcmi və rentabellik səviyyəsi təsir göstərir. Həmin amillərin təsirini aşağıdakı düsturların köməyilə hesablamağı təklif edirik:

plan üzrə satışdan əldə edilən mənfəət:

$$P_0=\frac{M_{pl}\times R_{pl}}{100}$$

Düsturu ilə hesablanmışdır ki, burada:

P_0 – plan üzrə mənfəət;

M_{pl} – plan üzrə mal dövriyyəsi;

R_{pl} – plan üzrə rentabellik səviyyəsi.

Cədvəl 8

Mənfəətə təsir edən amillərin təhlili

Göstəricilər	Mərkəzi Univermaq						Bakı Univermağı					
	Plan	Hesabat	Yerinə yetirilmə faizi	Kənarlaşma +, -			Plan	Hesabat	Yerinə yetirilmə faizi	Kənarlaşma +, -		
				Cəmi	o cümlədən					Cəmi	o cümlədən	
					Mal dövriyyəsinin həcmi hesabına	Rentabellik səviyyəsi hesabına					Mal dövriyyəsinin həcmi hesabına	Rentabellik səviyyəsi hesabına
1.Pərakəndə mal dövriyyəsi (min manat)	74342	77171	103,8	2829	-	-	37000	37552	101,4	552	-	-
2.Satışdan əldə edilən mənfəət:												
a) məbləğlə (m.m.)	1873	2297	122,6	424	71,7	+352,3	896	1015	113,2	119	+12,7	+106,3
b) mal dövriyyəsinə görə (faizlə)	2,52	2,97	-	0,45			2,42	2,70	-	0,28	-	-

Mal dövriyyəsinin həqiqi həcmi və rentabelliyin plan üzrə səviyyəsi məlum olduqda mənfəət aşağıdakı düsturla hesablanır:

$$P_1=\frac{M_h\times R_{pl}}{100}$$

Burada P_1 – həqiqi mal dövriyyəsidir. Həqiqi əldə edilmiş mənfəət:

$$P=\frac{R_1 \times R_h}{100}$$

Burada R_h – rentabelliyin həqiqi səviyyəsidir.

Indi isə həmin düsturlar əsasında ayrı-ayrı univermaqlar üzrə amillərin təsirini hesablayaq:

1. Mərkəzi Univermaq.

Plan üzrə satışdan əldə edilən mənfəət: $P_0=\frac{74342 \times 2,52}{100}$=1873 min manat.

Mal dövriyyəsinin həqiqi həcmi və rentabelliyin plan səviyyəsinə görə mənfəət: $P_1=\frac{77171 \times 2,52}{100}$=1944,7 min manat.

Həqiqi əldə edilmiş mənfəət: $R_h=\frac{77171 \times 2,97}{100}$=2297 min manat.

Beləliklə:

1. Mal dövriyyəsin həcminin artması hesabına mənfəət 1944,7 min manat – 1873 min manat = +71,7 min manat artmışdır.

2. Rentabellik səviyyəsinin artması hesabına mənfəət 2297 min manat – 1944,7 min manat = +352,3 min manat.

Yekunu: 2297 min manat – 1873 min manat = +424 min manat.

2. Bakı Univermağı üzrə:

Plan üzrə satışdan əldə edilən mənfəət: $P_0=\frac{37000 \times 2,42}{100}$=896 min manat.

Mal dövriyyəsinin həqiqi həcmi və rentabelliyin plan səviyyəsinə görə mənfəət: $P_1=\frac{37552 \times 2,42}{100}$=908,7 min manat.

Həqiqi əldə edilmiş mənfəət: $P=\frac{37552 \times 2,70}{100}$=1015 min manat.

Beləliklə:

1. Mal dövriyyəsin həcminin artması hesabına mənfəət 908,7 min manat – 896 min manat = +12,7 min manat.

2. Rentabellik səviyyəsinin artması hesabına mənfəət 1015 min manat – 908,7 min manat = +106,3 min manat artmışdır.

Yekunu: 1015 min manat – 896 min manat = 119 min manat.

Mənfəət məbləğinin artıb azalmasına, bir qayda olaraq, mal dövriyyə həcminin artıb-azalması, mal dövriyyəsi strukturunun dəyişməsi, xərclər sabit qalmaq şərti ilə gəlirlərin dəyişilməsi, gəlirlər sabiq qalmaqla xərclərin dəyişilməsi, gəlir və xərclərin ayrı-ayrı maddələrinin müxtəlif istiqamətdə və müxtəlif miqdarda dəyişilməsi təsir göstərir.

Əksəriyyət ticarət təşkilatı və univermaqların mal dövriyyəsinin fiziki həcmi ildən-ilə artır fəaliyyətdə olan təşkilatda ticarət təkmilləşir, mal dövriyyəsi üzrə plan tapşırıqları da bir qayda olaraq yerinə yetirilir. Mal dövriyyə tərkibində nisbətən yüksək rentabelliyə malik sənaye mallarının xüsusi çəkisinin artması mənfəət göstəricisinə müsbət təsir göstərir. Ticarətdə səmərəlilik göstəricisini müəyyən edən mal dövriyyə həcmi, ümumi gəlir, xərclər və ümumi gəlir, xərclər və mənfəət miqdarı plan və hesabatda ciddi təyin edilmiş göstəricilərdir.

Buna baxmayaraq onların bəzilərinin qabaqcadan yoxlanılmasına ehtiyac vardır. Məsələn, ümumi gəlir məbləğinin (satılmış malların hissəsinə düşən ticarət güzəşti) təyin edilməsində, onun keçmiş və gələcək hesabat dövrləri arasında bölüşdürlməsində bəzən səhvə yol verilir. Bunun da səbəbəi odur ki, satılmış və satılmamış malların payına düşən ticarət məbləği malların çeşid strukturunu nəzərə almadan şərti olaraq orta güzəşt faizi əsasında təyin edilir. Hesabat dövrünün payına düşən təicarət güzəşti məbləğini nisbətən düzgün təyin etmək üçün təcrübədə inventarizasiya aktlarına əsasən ayrı-ayrı mal qrupları üzrə mal qalıqları məbləğini təyin edir və sonra hər mal qrupunun güzəşt faizinə əsasən qalıqda olan malların payına düşən güzəşt məbləği təyin edilir. Bu məbləğ nisbətən düzgün təyin olunduğuna görə, satılmış malların payına düşən güzəşt məbləğini də nisbətən düzgün təyin etməyə imkan yaranır.

Beynəlxalq standartlara uyğun olaraq, ticarət müəssisələrində yeni şəraitdə mənfəətdən istifadənin təhlili təsdiq edilmiş maliyyə planına müvafiq olaraq aparılır. Əldə edilmiş mənfəət birinci növbədə ticarət müəssisələrinin xərclərinin

ödənilməsinə, kapital qoyuluşu işlərinin maliyyələşdirilməsinə, təsərrüfatın genişləndirilməsinə, xüsusilə də normativlər əsasında istifadə olunur.

Ticarət müəssisələri işinin qiymətləndirilməsi mal dövriyyəsi planın yerinə yetirilməsinə və mənfəətin mütləq məbləğinə görə aparılır.

Bizim fikrimizcə, mənfəətin mütləq məbləği hətta onun əvvəlki dövrlə müqayisədə artması belə planın yerinə yetirilməsini və ticarət müəssisələrinin daha yaxşı işləməsini xarakterizə etmir.

Mənfəətin artımı, əlbəttə, müsbət amildir, lakin o, ticarət müəssisələrində təsərrüfat vəsaitlərindən səmərəli istifadə olunduğunu göstərmir. Vəsaitlərdən səmərəli istifadə edilməsi göstəricisi və qənaətçilik rentabellik səviyyəsini göstərə bilər. Əslində elə bu, ticarət müəssisələrinin işinin səmərəliliyini qiymətləndirmək üçün əsas göstərici olmalıdır.

Ticarət müəssisə və təşkilatının təsərrüfat fəaliyyətlərinin nəticələrini qiymətləndirdikdə rentabellik səviyyəsi göstəricisi mənfəətin mütləq məbləği göstəricisinə nisbəiən müəyyən üstünlüklərə malikdir. Bununla belə rentabellik səviyyəsi göstəricisi (mənfəətin mal dövriyyəsinə olan nisbəti) yeni şəraitdə fəaliyyət göstərən ticarət müssisələrinin tələblərinə cavab verməyən bir neçə çatışmamazlıqlara cavab verməyən cəhətlərə malikdir. Bu çatışmamazlıq, hər şeydən əvvəl, ondan ibarətdir ki, o, istehsal fondlarından tam səmərəli istifadəni əks etdirmir. Bununla da mənfəətlə təsərrüfat fondlarından istifadə ilə alınan mənfəətin birbaşa əlaqəsi pərdələnmiş olur. Mənfəətin mütləq məbləği və onun səviyyəsi əsas və dövriyyə fondlarından səmərəli istifadə olunmadan da onların normativdən yüksək qalığı şəraitində də yüksək ola bilər. Mənfəətdə təsərrüfat fondları arasındakı əlaqənin görünməməsi, son nəticədə ticarət kollektivlərinin əsaslı xərcləri azaltmaqda marağını aşağı salır. Bəzi hallarda mal dövriyyəsi və mənfəətin mütləq məbləği planın yerinə yetirilməsi əsas fondlardan səmərəli istifadənin aşağı salınması ilə yanaşı hərəkət edir.

Rentabellik səviyyəsi göstəricisi ticarət işçilərini malları daha yüksək ticarət güzəşti ilə satmağa sövq edir. Hətta praktiki işçilər arasında belə bir hökm sürür ki,

guya daha yüksək ticarət güzəşti ilə məhsul satışı rentabelliyin yüksəldilməsinin əsas yoludur. Lakin mal dövriyyəsi həcmində daha yüksək ticarət güzəşti olan məhsulların xüsusi çəkisinin artması çox hallarda malların çeşid quruluşunun pozulmasına və alıcıların istehlak tələbinin pisləşməsinə səbəb olur.

Kommersiya strukturlarında mal satışı təkcə xərclərin ödənilməsini deyil, həm də müəyyən dərəcədə mənfəətin əldə edilməsini təmin etməlidir. Mənfəətin yaranması ticarətdə əsas etibarilə ticarət güzəştinin hesabına əldə edilir. Ticarətdə mənfəətə təsir göstrən amillər iqtisadi ədəbiyyatlarda lazımi qədər əhatə olunmuş-dur. Dissertasiya işində məqsəd xərclərin ayrı-ayrılıqda mənfəətə təsirini müəyyən etməkdir. Bizim fikrimizə görə, belə bir təhlil aparmaq üçün xərclərin və ticarət güzəştinin mal dövriyyəsinin hər manatına düşən məbləğ göstəricilərindən istifadə etmək olar.

İqtisadi ədəbiyyatlarda ticarətdə mal və mal qrupları üzrə xərc tutumunun müəyyən edilməsinin aşağıdakı üçü metodu qeyd edilmişdir:

1) əmsallar metodu;

2) riyazi modelləşdirmə metodu;

3) müstəqim hesab metodu.

Əmsallar metodu mal qruplarının xərc tutumunun müqayisə edilməsinin (əmsalların) nisbi göstəricilərinin istifadəsi üzərində qoyulmuşdur ki, bu xərclərin ayrı-ayrı növləri üzrə hesablanır. Bu zaman mal qruplarından biri müqayisə bazası (yəni vahidə bərabər) kimi qəbul edilir.

Xərc tutumunun əmsalı tədavül xərclərinin hər bir nomenklatura maddəsi üzrə hesablanır. Əmsalların ümumi sayı, beləliklə, mal qruplarının sayının bölüşdürülən maddələrin sayına vurulması hasilinə bərabərdir. Əmsallar xərclərin mal-qrup səviyyələri arasındakı nisbətləri ifadə edir (hər hansı mal qrupunun xərctutumu vahidə bərabər tutulur).

Bu və digər maddə üzrə xərclərin mallar üzrə səviyyələri aşağıdakı qayda üzrə müəyyən edilir. Xərctutumunun əmsalları ümumi mal dövriyyəsində ayrı-ayrı mal qruplarının xüsusi çəkisinə vurulur. Vurma hasillərini toplayıb və onların

məbləğini 10-a bölməklə bütün mal dövriyyəsi üzrə orta çəkili əmsal alınır. Sonra həmin maddə üzrə ticarət xərclərinin ümumi orta səviyyəsini orta çəkili əmsala bölünərək, əmsalı vahidə bərabər olan mal qrupu üzrə həmin maddənin xüsusi çəkisi hesablanır.

Növbə ilə bu xüsusi səviyyəni xərctutumunun müvafiq əmsallarına vurulmaqla bütün qalan mal qrupları üzrə xüsusi səviyyələr hesablanılaraq qiymətləndirilir. Müxtəlif əmsalların çoxluğu və onların dəfələrlə vurulması həqiqi məna kəsb etmir.

Riyazi modelləşdirilmə metodu bir amilli modelin (cüt koppelyasiya) və çoxamilli modelin (çoxlu koppelyasiya) qurulmasına əsaslanır. Bir amilli model müstəqim tənlik əsasında qurulur:

$$Y_x=a_0+a_1x_1$$

Burada, Y – xərclərin ümumi səviyyəsidir;

a_0a_1 – müstəqim təkliyin parametrləridir;

x – ümumi mal dövriyyəsində müəyyən mal qrupunun xüsusi çəkisidir. a_0a_1 parametrlərini hesablamaq üçün normal təklik sistemindən istifadə edilir:

$$a_0n+a_1\Sigma x=\Sigma y;$$
$$a_0\Sigma x+a_1\Sigma x=\Sigma xy$$

Müəssisələrin bütün dairəsi üzrə nəticəli (y) və amill (x) əlamətlərin empirik qiymətləri haqqında məlumatlar əsasında ən az kvadratlar metodu üzrə reqressiya (geriləmə) tənliyinin parametrlərini müəyyən edərək, hesab edilir ki, bütün mal dövriyyəsi yalnız həmin malın satılmasından ibarətdir. Yəni x=100. Müstəqim tənlikdə x-in bu qiyməti qoyularaq y kəmiyyəti tapılır ki, bu da həmin mal üzrə tədavül xərclərinin səviyyəsi hesab edilir.

Çoxamilli model aşağıdakı reqressiya (geriləmə) tənliyi əsasında qurulur:

$Y=a_0+a_1x_1+\ldots+a_nx_n$

Burada, Y – xərclərin ümumi səviyyəsidir;

a_1 (i=0, 1, 2 …, n) peresiya tənliyinin parametrləridir;

x_1 (i=0, 1, 2 …, n) ümumi mal dövriyyəsində i malın xüsusi çəkisidir.

Belə ki, n=m – 1

Burada, m – malların adlarının miqdarıdır.

Görkəmli iqtisadi alimlərin müəyyən qrupunun güclü təbliğ etməsinə baxmayaraq mal üzrə xərctutumunun müəyyən edilməsi üçün riyazi modelləşdirmə metodunun hərtərəfli eksperiment yoxlaması onun yararsız olduğunu göstərdi.

Baxdığımız metodun tətbiqi zamanı bəzi mallar üzrə tədavül xərclərinin səviyyəsi mənfi qiymət almışdır ki, bu da həmin göstəriciyə ziddir (əksidir).

Nəhayət, mal, mal-qrup xərctutumunun gəlirtutumu və rentabelliyin öyrənilməsinin üçüncü metodu – müstəqim hesabat metodudur. Onun mahiyyəti mühasibat uçotunun təkdə maddələri üzrə deyil, həm də onların mal qrupları üzrə ayrılmasının aparılmasıdır. Bu metod ticarət müəssisələrinin bir çoxlarında eksperiment kimi yoxlanılmırdı.

Alınmış materiallar müəyyən vaxtlarda pərakəndə qiymətlərin nizamlanması prosesində ayrı-ayrı mal qrupları üzrə ticarət güzəştlərinin (əlavələrinin) müəyyən edilməsi üçün istifadə edilmişdir. Bunu həm ayrıca ticarət müəssisəsində, həm də onların hər hansı məcmusunda tətbiq etmək olar.

Müstəqim hesab metodu bilavasitə ticarət kalkulyasiya mövqeyinə gətirib çıxarır ki, bu da bazar iqtisadiyyatı şəraitində müstəqil əhəmiyyət kəsb edir. Rəqabət mübarizəsində ancaq o sahibkar davam gətirə bilər ki, öz xərclərinin uçotunu diqqətlə aparır.

Beləliklə, bazar iqtisadiyyatı şəraitində nəzərdən keçirilən problemin əhəmiyyəti xeyli artır. Əgər islahata qədərki ticarətdə bir çox ərzaq malları ticarətinin zəruriliyi yüksək rentabellik qeyri-ərzaq malları hesabına idarədaxili nizamlaş-

dırma yolu ilə ötrülürdüsə, deyək ki, uşaq çeşidli malların zərərliyi başqa qeyri-malların hesabına ödənilmişdisə, yeni şəraitdə bu istisna edilir.

Mallar üzrə gəlirtutumunun və rentabelliyin təhlili, bazar iqtisadiyyatı münasibətləri şəraitində ticarətdə gəlirtutumunun və rentabellik göstəriciləri, onların təhlili böyük əhəmiyyət kəsb edir. Nəzərdən keçirilən göstəricilər onların formalaşmasının çoxamilliyi ilə fərqlənir. Pərakəndə ticarətdə mal dövriyyəsinin həcmi üzrə ümumi qəbul edilmiş gəlirtutumunu (ümumi mənfəətliliyi) və rentabelliyi (xalis mənfəətliliyi) əks etdirən göstərici kifayətləndirici deyildir. Əsas nöqsan ondan ibarətdir ki, mal dövriyyəsinin strukturunda irəliləmələr heç də nəzərə alınmır. Universal ticarət təşkilatında pərakəndə mal dövriyyəsinə nisbətən rentabellik göstəricisi müsbət halda deyil, hələ də mənfi halı vardır.

Mal dövriyyə həcminin artması və digər hallarda xərclərin səviyyəsinin aşağı düşməsi ümumi gəlirtutumunun səviyyəsinin və rentabelliyin yüksəlməsi ilə ifadə olunur. Lakin mal dövriyyəsinin strukturundakı irəliləmələr bu qanunauyğunluğu güclü surətdə sarsıdır. Bəzi malların satışı yüksək rentabelliyi təmin edir və digərlərinin satışı isə zərərlə başa çatır. Bu, xüsusilə, vahid orta ticarət əlavəsinin istifadə zamanı meydana gəlir. Mallar üzrə xərclər ticarət əlavələrinin qoyulması üçün əsasdır. Hər malın satışı zamanı, birincisi, cansız və canlı əmək məsrəflərini tam örtməli, ikincisi, normal mənfəətliliyi (rentabelliyi) təmin etməlidir. Buradan da rentabelliyin səviyyəsinin təkcə mal dövriyyəsi həcminə görə deyil, həm də tədavül xərcləri məbləğinə görə hesablanması məqsədəuyğunluğu meydana gəlir.

Müstəqim hesab metodu, yəni ticarət kalkulyasiya üsulundan istifadə edərək Ramstore ərzaq malları qrupu və Mərkəzi Univermağın qeyri-ərzaq malları qrupu üzrə xərclər, ticarət əlavələri və rentabelliyin nisbi kəmiyyətləri (mal dövriyyəsinin həcminə görə) və məsrəfləri aşkar edilmişdir.

Rentabelliyin təhlili prosesində istifadə edilən göstəricilərə (mal dövriyyəsi həcminə və məsrəflərin məbləğinə görə) sənayedə tətbiq edilən göstəriciləri (əsas vəsaitlərə görə aə bütövlükdə dövriyyədən kənar aktivlərə nisbət üzrə mənfəəti,

dövriyyə aktivlərinə görə və xüsusi hazır məhsulun xammalın, malların materialların və oxşar dəyərlilərin ehtiyatlarına görə mənfəət) əlavə etmək olar.

Rentabellik səviyyəsini malların növlərindən, mallar və mal qrupları növlərindən, mallar və mal qrupları üzrə bu göstəricinin əhəmiyyətinin olmasını müəyyən etmək olar.

FƏSİL III. TİCARƏT TƏŞKİLATINDA SƏMƏRƏLİLİYİN TƏHLİLİ METODİKASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

3.1. Ümumi gəlirin təhlili metodikasının təkmilləşdirilməsi

Ticarətdə iqtisadi islahatlar şəraitndə təsərrüfat fəaliyyətinin nəticələrinin iki göstərici üzrə – mal dövriyyəsi və mənfəət üzrə qiymətləndirilməsi hər univermağın şöbələrinin mənfəət və rentabelliyinin dərindən, ardıcıl, hərtərəfli təhlil edilməsini tələb edir. Belə təhlil olmadan maliyyə vəziyyətinin sabitliyini təmin etmək, habelə müəssisə və ticarət təşkilatının mənfəətini daha da artırmaq mümkün deyildir. Nə qədər ki mənfəət ümumi ticarət gəlirləri və tədavül xərclərinin kəmiyyətlərindən asılıdır, ticarət müəssisələri mənfəət və rentabelliyinin təhlili ümumi gəlirin və xərclərinin ətraflı təhlil etmək tələb olunur.

Ümumi gəlirin təhlil edilməsində məqsəd – planın yerinə yetirilməsinə kömək etmək və ümumi gəlirin artırılması ehtiyatlarını aşkar etməkdir ki, bu da nəticə etibarilə mənfəət və rentabelliyin artırılmasında öz əksini tapır.

Ticarətdə ümumi gəlirin təhlili planının yerinə yetirilməsi dərəcəsini müəyyənləşdirməyi, ümumi gəlirin plandan həqiqi kənarlaşmasına təsir göstərən amil və səbəblərin aşkara çıxarılmasını, həmin kənarlaşma meyllərinin müəyyənləşdirilməsini, ümumi gəlirin səviyyəsinin yüksəldilməsi tədbirlərinin işlənib hazırlanmasını tələb edir.

Bazar iqtisadiyyatı şəraitində bütün təsərrüfat fəaliyyəti kimi ümumi gəlirin təhlili bütövlükdə univermaq və onun şöbələri üzrə gələcəkdə ümumiləşmə ilə hər bir şöbə üzrə həyata keçirilməlidir. Həqiqi ümumi gəlir məbləğinin plandan kənarlaşması qarşılıqlı surətdə əlaqədar olan bir sıra amillərin təsiri nəticəsində baş verir. Təhlil materialları göstərdi ki, ümumi gəlir planının yerinə yetirilməsi səbəblərindən biri ticarət güzəştlərinin orta faizi üzrə plan tapşırıqlarının əsaslandırılmasıdır. Standartlara əsasən ticarət güzəştlərindən mənfəətin həcmini6n müəy-

yən edilməsi zamanı ayrı-ayrı malların satışı planına və ticarət güzəştləri həcminə istinad edilir.

Lakin həqiqi əldə edilmiş ümumi gəlir məbləğini mal dövriyyəsi strukturuna müvafiq olaraq planlaşdırılmalı ola bilən məbləğlə müqayisə etsək, onda vəziyyət tamamilə dəyişilmiş olar. Həqiqi göstəricinin plan göstəricisilə müqayisəsi göstərdi ki, ümumi gəlir planının yerinə yetirilməsinin obyektiv qiymətləndirilməsini yalnız ticarət güzəştlərinin orta səviyyəsinin hesablanmasının yoxlanılmasından sonra vermək olar. Plan üzrə ticarət güzəşti faizi səviyyəsinin əsaslandırılmamış olması və təqribi hesablanması və plan tapşırıqlarının işlənib hazırlanmış həqiq yoxlanmaq üsullarının aparılmaması ümumi gəlirin təhlili metodunda mövcud olan mühüm çatışmamazlıqdır.

Buna görə də təhlil prosesində planlaşdırmanın keyfiyyətini, plan tapşırıqlarının keyfiyyətini bütövlükdə ehtiyatların təsnifatı üzrə nəticə əldə etmək zəruridir. Belə təhlil tədqiqatın yaxşılaşdırılması üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, təhlil zamanı baş verən çatışmamazlıqları üzrə çıxarmaqla nöqsanların aradan qaldırılmasına kömək edir, əsaslandırılmamış plan hesablamalar üçün başlanğıc göstəriciləri hazırlayır. Bundan sonra plan tapşırıqlarının reallığını müəyyən etdiyi kimi – planların yerinə yetirilməsinə təsir göstərən amillərin onların istiqamət və təsir həcmini izah etmək lazımdır.

Ümumi gəlirin həcminin dəyişilməsinə təsir edən əsas amillər mal döriyyəsinin həcmi və orta ticarət güzəqti səviyyəsi faizidir. Bizə elə gəlir ki, yuxarıda qeyd etdiyimiz amillərin ümumi gəlir planının yerinə yetirilməsinə təsiri dərəcəsini və istiqamətini hesablamaq üçün fərq üsulunu tətbiq etmək vacibdir.

Mal dövriyyəsi planının artıqlaması ilə yerinə yetirilməsi ümumi gəlirin artımına səbəb olub. Reallaşdırılmış orta ticarət güzəştlərinin faizinin plan gəlirinin düzgün hesablanması üçün hər mağazanın əmtəə dövriyyəsinin plan quruluşuna müvafiq müəyyən edilmişdir.

Lakin reallaşdırılan ticarət güzəştləri orta faiz planının yerinə yetirilməməsi planla müqayisədə ümumi gəlirin faktiki məbləğini xeyli azaltmışdırö onun

nəticəsində planla müqayisədə faktiki ticarət güzəştlərinin orta səviyyəsinin doğurduğu itkilərin yeri örtülmüşdür. Ümumi gəlir məbləği mağazalar üzrə müvafiq olaraq yüksəlmişdir.

Əmtəə dövriyyəsinin həcmi planının cüzi dərəcədə artıqlaması ilə yerinə yetirilməsi nəticəsində bu ilin hesabına ümumi gəlirin artımı kifayət qədər olmamışdır. Odur ki, planlaşdırılan ticarət güzəşti əlavəsinin orta faiz planının yerinə yetirilməməsi ilə əlaqədar olaraq ümumi gəlirin azalmasının qarşısını almaq məqsədəuyğundur. Bu amil hesabına yerin doldurulması əhəmiyyətsiz olub.

Ümumi gəlir planının yerinə yetirilməməsi qismən bir də onun nəticəsində baş vermişdir ki, ticarət güzəşti orta faizi üzrə plan tapşırığının artırılması əsaslandırılmamışdır.

Ticarət güzəşti orta faizinin azalması və ya artımı öz növbəsində tam bir sıra amillərin dəyişilməsinin nəticəsidir; əmtəə dövriyyəsinin quruluşu, əmtəə hərəkəti yolu (əmtəə yeridilməsi), malların qiymətinin aşağı salınması, qiymətin mövsümi dəyişikliyi, əmtəə keyfiyyətinin azalması ilə bağlı olaraq əmtəələrin ucuzlaşması, hökumətin qərarı üzrə ayrı-ayrı əmtəələrin ticarət güzəştləri səviyyəsinin dəyişməsidir.

Əmtəə dövriyyəsi strukturunun orta faizi ticarət güzəştinə təsiri mal qrupları üzrə güzəştlərin differensiasiyasına səbəb olur.

Dəyər qanununa uyğun olaraq ticarət güzəştləri normal işləyən hər bir müəssisə üçün tədavül xərclərinin ödəməli və müəyyən mənfəət təsin etməlidir.

Qeyd etdiyimiz kimi, hazırda fəaliyyət göstərən ticarət güzəştləri xərcin həcmi və rentabellik prinsipinə uyğun qoyulmur. Bu, reallaşanda müəssisəyə böyük mənfəət gətirən «xeyirli» əmtəələrin və ticarət güzəştləri üzrə mənfəətin həcmini azaldan «zərərli» əmtəələrin mövcudluğuna gətirib çıxarır.

Ticarət müəssisələrinin gəlirdən asılı olmayaraq əmtəələrin geniş çeşidini tələb edən alıcıların mənafeyinə cavab verməyən daha gəlirli əmtəələrin realizesiyasına cəhd etməsi buradan irəli gəlir. Buna görə də əmtəə dövriyyəsi quruluşunun ticarət güzəşti orta faizinə təsir göstəricisi bir tərəfdən əmtəə dövriyyəsi quruluşunun

şunun dəyişilməsi hesabına ümumi gəlirin kəmiyyət dəyişikliyini, digər tərəfdən isə alıcılara xidmətin keyfiyyətini xarakterizə edir.

Biz hesab edirik ki, aşağı ticarət güzəşti faizi ilə əmtəə çeşidlərinin ixtisar edilməsi hesabına ümumi gəlirin artımını və yüksək ticarət güzəşti faizi ilə daha intensiv əmtəə satışını mağaza işçisinin xidmətinə aid etmək olmaz, belə ki, o, alıcıların tələbinə cavab verməyir. Bu məsələ üzrə başqa mülahizələr də vardır.

Bəzi müəlliflər rentabelliyin artması səbəblərini təhlil edərək, «əlavələrin yüksəlməsi ilə əmtəə satışının xeyli artımını» ticarət rəhbərlərinin xidmətləri sırasına və «artırılmış ticarət güzəşti faizi ilə əmtəə cətirilməsinin (zavoz) gücləndirilməsi üzrə imkanların istifadə olunmamasını» rentabelliyi artıran ehtiyatlara daxil edirlər.

Təsəvvür olunur ki, yüksək ticarət güzəştli faizinə malik əmtəələrin gətirilməsi və reallaşdırılması mağaza işçilərinin xidməti olub, rentabelliyi artıran ehtiyatlara heç bir dərəcədə aid deyildir. Burada istehlakçıların mənafeyini rəhbər tutmaq lazımdır. Əks halda rentabellik artımının həmin ehtiyatları hərəkətə gətirilsə, onda realizasiyası ticarət üçün xeyirli olmayan, amma əhaliyə zəruri olan çoxlu əmtəələr mağazaların dövriyyəsindən kənar edilmiş olur.

Reallaşdırılmış ticarət güzəştləri orta faizinə əmtəə dövriyyəsi strukturunun dəyişilməsi təsirinin hesablanması üçün iqtisadi ədəbiyyatda bir sıra üsullar işlənib hazırlanmışdır.

İ.e.d., prof. M.İ.Bakanov bu hesablama üçün faktiki əmə dövriyyəsində ayrı-ayrı əmtəə qruplarının xüsusi çəkisinin plan üzrə olan əmtəələr üzrə ticarət güzəştlərindən kənarlaşmasını zəmanət verir. Əmtəə qruplarının xüsusi alınan çəkisinin dəyişilməsi hesabına əmtəə dövriyyəsindəki ticarət güzəşti məbləği ticarət güzəştlərinin faktiki orta səviyyəsini hesabalmaq məqsədəuyğundur.

Bu axırıncının plan ticarət əlavələri səviyyəsi ilə müqayisəsi əmtəə dövriyyəsi quruluşunda həmin göstəricinin dəyişikliyinə dair mühakimə yürütməyə imkan verir.

Mal dövriyyəsi strukturunun dəyişikliyinin reallaşdırılmış ticarət güzəşti orta faizinə təsirini əks etdirən bütün bu üsullar olduqca geniş hesablamalar tələb edir. Hesablamanın böyük həcmdə olması və şərtiliyi ticarət müəssisələrində çeşidlərin genişlənməsi ilə daha da artır. Bu, təhlilin daha müasir və eyni zamanda daha sadə metodlarını axtarıb tapmağa təhrik edir. Bizim fikrimizcə, əmtəə dövriyyəsi quruluşunun reallaşdırılmış ticarət güzəştinin orta faizinə təsirini istisna metodu (üsulu) ilə müəyyən etmək olar. Onun mahiyyəti aşağıdakından ibarətdir:

Reallaşdırılmış ticarət güzəşti orta faizinə əmtəə dövriyyəsi tsrukturundan savayı, habelə əmtəə yeridilməsi yolunun dəyişilməsi və hökumət qərarı üzrə əmtəə qiymətlərinin, ayrı-ayrı əmtəələr üzrə ticarət güzəştləri normasının dəyişilməsi də təsir göstərir. Deyilənləri nəzərə alaraq, təhlilin ardıcıqllığını bir qədər dəyişdirmək lazımdır: əvvəlcə, reallaşdırılmış ticarət güzəşti orta faizinə həmin amillərin təsirini müəyyənləşdirək.

Ticarət müəssisələrinin təsərrüfat fəaliyyəti təcrübəsində əmtəələr üzrə ticarət güzəştləri səviyyəsi və qiyməti kimi dəyişikliklər. Ticarət əlavələrinə qiymət kimi bizim ölkəmizdə dövlət tərəfindən müəyyənləşdirir, xüsusi dəyişikliklərə məruz qalmır. Hər bir ticarət müəssisəsi və əmtəələrin hərəkəti də tez-tez dəyişikliklərə məruz qalmır. Bu amillər təkrarlanmayan xarakter daşıyır və onların təhlili qiymət, ticarət güzəşti dəyişikliklərinə yer olanda, yaxud əmtəə hərəkəti yolu ilə həyata keçirilir.

Əgər təhlil etdiyimiz dövrdə yuxarıda göstərilən amillər yoxdursa, onda planla müqayisədə reallaşdırılmış ticarət güzəştlərinin orta faiz səviyyəsi əmtəə dövriyyəsi quruluşu dəyişikliyinin nəticəsidir.

Əgər tədqiq edilən dövrdə əmtəə yeridilməsi yolunda qiymətdə, yaxud ticarət güzşəti səviyyəsində dəyişiklik olarsa, onda hər bir amilin ümumi gəlir planının yerinə yetirilməsinə təsirini say və həcm fərqi üsulu ilə ölçmək lazım gəlir.

Təhlilin nəticələrini ümumiləşdirmək üçün məlumat cədvəli tərtib olunur və o, əyani olaraq göstərir ki, real göstəricilərin plan göstəricilərindən kənarlaşması

hansı amil hesabına hansı həcmdə və istiqamətdə baş verir. Təhlilin nəticələrini aşağıdakı kimi ümumiləşdirmək lazımdır:

1) Ümumi gəlir planının yerinə yetirilməsinin obyektiv qiymətləndirilməsini təmin etmək üçün reallaşdırılmış ticarət güzəştləri orta faizinin plan haqq-hesablarının reallığını yoxlamaq zəruridir;

2) Ümumi gəlirin təhlilində təcrübədə tez-tez baş verdiyinin əksinə olaraq faktiki və plan göstəricilərinin müqayisəsi ilə məhdudlanmaq olmaz. Ümumi gəlirin kəsiyyətini hansı ölçüdə müəyyən edən amilləri dəqiqləşdirmək zəruridir;

3) Əmtəə dövriyyəsi quruluşundakı dəyişikliyin reallaşdırılmış ticarət güzəşti orta faizinə təsirinin hesablanmasında istisna metodu (sərfnəzər metodu) lazımdır;

4) Təhlil edilən torqda mağazanın rezervində ümumi gəlirin planlaşdırılması təcrübəsinə plan ticarət güzəşti orta faizini planlaşdırılan əmtəə dövriyyəsi həcmi və quruluşu ilə əlaqələndirməklə yenidən baxmaq lazımdır;

5) Əmtəə dövriyyəsini artıran bütün ehtiyatlardan istifadə etmək vacibdir, belə ki, bu demək olar ümumi gəlir artımının mağazadan yeganə asılılığıdır;

6) Nəqliyyatla danımağı yüksəltmək imkanlarını axtarıb tapmaq məqsədilə əmtəələr göndərilməsinə dair müqavilələrə də yenidən baxmağa fikir var və təcrübədə mağazanın rezervində ümumi gəlirin hərtərəfli və dəqiq təhlili həyata keçirilir.

Torqun iqtisadçı və mühasiblərinin nəzər diqqətini bu göstərici əsasən o vaxt cəlb edir ki, o vaxt bir sıra mağazalar mənfəət üzrə plan tapşırığını yerinə yetirmiş olmur. Bu halda mənfəət planının yerinə yetirilməsinə təsir izah etmək məqsədi ilə geridə qalmış müəssisələrin ümumi gəliri təhlilə məruz qalır. Ümumi gəlir təhlilinin belə vəziyyəti təsərrüfatçılıq prinsipi olan təsərrüfat hesabının gücləndirilməsi ilə əlaqədar təhlilin aparılmasına artan tələbatı təmin etmir. Mərkəzi Univermağın ümumi gəlir dinamikasının tədqiq göstərdi ki, ümumi gəlirin mütləq məbləği ildən-ilə artır.

Dəyər qanunun təsiri həm istehsal sferasında, həm də tədavül sferasında özünü göstərir. Ona görə də təkcə ictimai məhsul istehsalında deyil, həmçinin onun

reallaşdırılmasına rentabelliyin təmin edilməsi zərurəti dəyər qanunundan irəli gəlir.

Ticarətdə dəyər qanunun təsiri qiymətlər sistemi və ticarət güzəştləri vasitəsilə üzrə çıxır ki, bunlar da tədavül xərclərinin öyrənilməsini və normal işləyən hər bir ticarət müəssisəsi üçün müəyyən səmərəlik göstəricisi olan mənfəəti təmin etməlidir.

Ticarətdə ümumi gəlirin yaradılmasının əsas mənbəyi ticarət güzəştləridir, ona görə də malların satılmasından əldə edilən səmərəlilik göstəricisi olan ümumi gəlirin təhlili təkcə ticarət güzəştlərinin orta səviyyəsinin dəyişməsini aydınlaşdırmır, həm də onun plan səviyyəsindən kənarlaşmasının səbəblərini də müəyyənləşdirməlidir. Ümumi gəlirin təhlil edilməsində məqsəd – planın yerinə yetirilməsinə kömək etmək və ümumi gəlirin artıqlaması ilə ehtiyatlarını aşkar etməkdir ki, bu da nəticə etibarilə mənfəət və rentabelliyin artmasında öz əksini tapır.

Ticarətdə ümumi gəlirin təhlil planın yerinə yetirilməsi dərəcəsini müəyyənləşdirməyi, ümumi gəlirin plandan həqiqi kənarlaşmasına təsir edən amil və səbəblərin aşkara çıxarılmasını, həmin kənarlaşma meyllərinin müəyyənləşdirilməsini, ümumi gəlirin yüksəldilməsi tədbirlərinin işlənib hazırlanmasını tələb edir. Bu baxımdan fəaliyyətini təhlil etdiyimiz Qapalı Səhmdar Cəmiyyətinin «Mərkəzi Univermağın», «Bakı Univermağının» və «Sumqayıt Univermağının» 2013-2015-ci ilin dinamikasını nəzərdən keçirək.

Cədvəl 9

Mal satışından əldə edilən ümumi gəlirin təhlili

Illər	**Mərkəzi Univermaq**			**Bakı Univermağı**			**Sumqayıt Univermağı**		
	plan	hesabat	Icra faizi	plan	hesabat	Icra faizi	plan	hesabat	Icra faizi
2013	3555,0	3572,0	100,47	2015,0	2023,0	100,39	214,0	219,0	102,33
2014	3609,0	3595,0	99,61	2152,0	2078,0	96,56	203,0	212,0	104,43
2015	4469,0	4684,0	104,8	2105,0	2105,0	100,0	215,0	223,0	103,72

Ticarət müəssisələrinin ümumi dinamikasının tədqiq edilməsi göstərdi ki, ümumi Ümumi gəlirin artımı isə öz növbəsində mal satışının artmasına və reallaş-dırılmış ticarət güzəştinin orta faizinin yüksəlməsinə səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, həmin amillərin təsiri illər üzrə müxtəlif olmuşdur. Belə ki, 2015-ci ildə 2013-cü illə müqayisədə ümumi gəlir Mərkəzi Univermaqda 1129,0 min manat, Bakı Univermağında 193,0 min manat, Sumqayıt Univermağında 44,4 min manat yüksəlmişdir.

Yeni şəraitdə bütün mağazalar kimi səmərəlilik göstəricisi olan ümumi gəlirin təhlilini Mərkəzi Univermağın 2015-ci il üzrə nəzərdən keçirək.

gəlirin mütləq məbləği ildən-ilə artır. 2015-ci ildə 2013-cü illə müqayisədə 124,0% və ya 1569 min manat artmışdır.

Cədvəl 10

Mərkəzi Univermaq üzrə ümumi gəlirin təhlili metodikasının təhlili

Göstəricilər	Plan	Hesabat	Planın yerinə yetiril-məsi %-lə	Plandan kənarlaşma +, -		
				Cəmi	O cümlədən	
					Mal dövriy-yəsinin həcmi hesabına	Ticarət güzəştinin orta səviyyəsi hesabına
Pərakəndə mal dövriyyəsi (min manat)	74342	77171	103,9	+2829		
Malların satışından ümumi gəlir: a) məbləğlə (min manat) b) mal dövriyyəsinə görə (faizlə)	4469 6,011	4684 6,069	104,8 -	+215 0,058	+170,0	+45

Cədvəl məlumatlarından göründüyü kimi, 2015-ci ildə Mərkəzi Univermaq üzrə mal dövriyyəsi planı 3,9% və ya 2829 min manat artıqlaması ilə yerinə yetirilmiş və buna görə də ümumi gəlir 0,058%, yaxud 215 min manat yüksək olmuşdur. Ümumi gəlirin həcminə təsir edən amillər aşağıdakılardır: mal dövriyyəsinin həcmi və ticarət güzəştlərinin orta səviyyəsi. Həmin amillərin ümumi gəlirin həcminə təsirini müəyyən edək.

Cədvəl 11

Ticarət müəssisələri üzrə malların satışından əldə edilən ümumi gəlirin 2015-ci il üzrə təhlili (min manatla)

Ticarət təşkilatı	Həqiqi mal dövriyyəsi (min manatla)	Plana görə ümumi gəlirlərin orta səviyyəsi (dövriyyəyə nisbətən %-lə)	Ümumi gəlir (min manatla)			Kənarlaşma +, -		
			Plan üzrə	Həqiqi mal dövriyyəsinə görə	Həqiqi yerinə yetirilmə	Cəmi (həqiq plan) (5 – 3)	O cümlədən	
							Mal dövriyyəsinin həcmi hesabına (sətir 4 – sətir 3)	Ticarət güzəştlərinin orta səviyyəsinin dəyişməsi hesabına (sətir 5 – sətir 4)
	1	2	3	4	5	6	7	8
1. Mərkəzi Univermaq	77171	6,011	4469	4639	4684	+215	+170	+45
2. Bakı Univermağı	37552	5,919	2223	2113	2208	-15	-110	+95
3. Sumqayıt Univermağı	4318,7	5,788	250	250	258,4	-	-	+8,4
	119041,7		6942	7002	7150,4			

Məsələn, plan üzrə müəyyən olunmuş ümumi gəliri hesablamaq üçün:

$$Ü_g=\frac{M_d \times T_g}{100}=\frac{74342 \times 6{,}011}{100}=4469 \text{ min manat}$$

Burada $Ü_g$ – plan üzrə ümumi gəlir;

M_d – plan üzrə mal dövriyyəsi;

T_g – ticarət güzəştlərinin plan üzrə orta səviyyəsi.

Mal dövriyyəsinin həqiqi həcmi və ticarət güzəştlərinin səviyyəsinə görə ümumi gəlirin həcmi aşağıdakı kimi olar:

$$Ü_g=\frac{M_1 \times T_g}{100}=\frac{77171 \times 6{,}011}{100}=4639 \text{ min manat.}$$

Burada T_1 – həqiqi mal dövriyyəsi.

Ticarət güzəştlərinin həqiqi səviyyəsinə görə:

$$T_1=\frac{T_1 \times Ü_1}{100}=\frac{77171 \times 6{,}069}{100}=4684 \text{ min manat olur.}$$

Burada $Ü_1$ – ticarət güzəştlərinin həqiqi orta səviyyəsidir.

Beləliklə, ümumi gəlirin 215 min manat artıq yerinə yetirilməsi aşağıdakıların nəticəsində olmuşdur:

1) Mal dövriyyəsi həçminin artması. Bu, ümumi gəlirin 4639 min manat – 4469 min manat = +170 min manat artmasını təmin etmişdir;

2) Ticarət güzəştlərinin orta səviyyəsinin aşağı düşməsi. Bu, ümumi gəlirin 4684 min manat – 4639 min manat = +45 min manat artmasına səbəb olmuşdur.

Yekunu: 4684 min manat – 4469 min manat = +215 min manat.

Təklif etdiyimiz metodikadan istifadə edərək mal dövriyyəsi həcminin və ticarət güzəştlərinin orta səviyyəsinin ayrı-ayrı pərakəndə ticarət müəssisələri hədlərində ümumi gəlirin ölçüsünə təsirini təyin edək. Apardığımız tədqiqat nəticəsində məlum olur ki, mal dövriyyəsi həcminin müxtəlif ticarət təşkilatında satışdan əldə edilən ümumi gəlirin həcminə təsirinin başqa şəkildə olduğunu göstərir. Bu onunla izah olunur ki, ticarət müəssisələri üzrə mal dövriyyəsinin həcmi 3234,3 min manat (135281,7 min manat – 132047,4 min manat) çoxdur. Bunun nəticəsidir ki, bütövlükdə tədqiq etdiyimiz ticarət müəssisələri üzrə mal satışından əldə edilmiş ümumi gəlir 42,7 min manat artmışdır. Qeyd etmək lazımdır ki, bu artım Mərkəzi Univermaq üzrə 170 min manat yüksəkdir. Ticarət güzəştlərinin orta səviyyəsinin dəyişilməsi hesabına isə bütövlükdə ticarət müəssisələri üzrə bu artım 180 min manat olmuşdur və həmin artım əsasən Mrəkzi Univermaq və Bakı Univermağı üzrə xüsusilə yüksəkdir: Mərkəzi Univermaq üzrə 45 min manat, Bakı Univermağı üzrə isə 95 min manat təşkil etmişdir.

Cədvəl 12

Qapalı səhmdar cəmiyyətinin 2015-ci il ticarət müəssisələri üzrə ticarət güzəştlərinin orta səviyyəsinin mənfəətə təsirinin təhlili

Ticarət təşkilatı	Həqiqi mal dövriyyəsi (min manat)	Dövriyyəyə gbrə faizlə ticarət güzəştlərinin orta səviyyəsi			Ticarət güzəştlərinin orta səviyyəsinin dəyişilməsi hesabına mənfəətin dəyişilməsi (min manat)
		Plan	Hesabat	Kənarlaşma +, -	
Mərkəzi Univermaq	77171	6,011	6,069	+0,058	+44,7
Bakı Univermağı	37552	5,919	5,826	-0,093	-34,9
Sumqayıt Univermağı	4318,7	5,788	5,994	+0,206	+8,8
1 saylı Univermaq	8160	5,909	6,007	+0,098	+7,9
2 saylı Univermaq	8080	5,526	5,747	+0,221	+17,8
Yekunu	135281,7	5,974	6,143	+0,169	+228,6

Ticarət güzəştlərinin orta səviyyəsindəki dəyişikliklərin mənfəətə təsirini hesablamaq üçün ticarət güzəştlərinin plan və həqiqi səviyyələri arasındakı fərqi həqiqi mal dövriyyəsinin həcminə vurub 100-ə bölmək lazımdır. Bu amillərin mənfəətə təsirinin hesablanması nəticələri aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl məlumatlarından göründüyü kimi, tədqiq etdiyimiz ticarət müəssisələri üzrə ticarət güzəştlərinin həqiqi orta səviyyəsi 6,143% təşkil etmişdir. Ticarət güzəştlərinin həqiq orta səviyyəsinin plana nisbətən 0,169% artması mənfəəti 228,6 miq manat ($\frac{135281,7 \times 0,169\%}{100}$) artırmışdır.

Fəaliyyətini təhlil etdiyimiz ticarət müəssisələri üzrə ticarət güzəştlərinin həqiqi orta səviyyəsinin dəyişilməsi hesabına ən yüksək mənfəət artımıMərkəzi Univermaqda (44,7 min manat) müşahidə olunur. qeyd etmək lazımdır ki, bütün ticarət müəssisələri arasında təkcə Bakı Univermağı üzrə ticarət güzəştlərinin həqiqi səviyyəsi 0,093% aşağı düşmüş və bunun nəticəsində 34,9 min manat az mənfəət əldə edilmişdir. Bununla yanaşı ticarət güzəştləri mal dövriyyəsinə görə Sumqayıt Univermağı üzrə 0,206%, 1 saylı univermaq üzrə 0,098% və 2 saylı univermaq üzrə 0,221% artmış və bunun nəticəsində də ticarət müəssisələrinin ümumi gəliri uyğun olaraq 8,8 min manat, 7,9 min manat və 17,8 min manat artmışdır.

Ticarət güzəştlərinin orta səviyyəsinin artması nəticəsində malların satılmasından əldə edilən ümumi gəlirin artması məbləğini müəyyən etdikdən sonra təhlil prosesində ticarət güzəştlərinin orta səviyyəsinin dəyişilməsinə səbəb olmuş müxtəlif amillərin təsirini aydınlaşdırmaq lazımdır.

Ticarətdə təhlil üzrə iqtisadi ədəbiyyatda müəlliflərin əksəriyyəti ticarət güzəştlərinin orta səviyyəsinin dəyişilməsini əsasən mal dövriyyəsinin quruluşundakı dəyişikliklərin malların satışından əldə edilən ümumi gəlirin həcminə təsirini təhlil etmək üçün bir sıra üsullar təklif edirlər. Professor M.I.Bakanov[1] mal dövriyyəsi strukturunun ümumi gəlirə təsirini ticarət güzəştlərinin orta səviyyəsi vasitəsilə hesablanmasını təklif edir və bu məqsəd üçün həqiqi mal dövriyyəsin-

[1,2] М.И.Баканов «Экономический анализ в торговле». М., 1990.

dəki müxtəlif mal qruplarının xüsusi çəkisinin plan dövriyyəsindən kənarlaşmasından və ticarət güzəştlərinin mallar üzrə səviyyəsindən istifadə edir. Mal dövriyyəsində mal qruplarının xüsusi çəkisinin dəyişilməsi hesabına əldə edilmiş ticarət güzəştləri məbləği ticarət güzəştlərinin həqiqi orta məbləğini hesablamağa imkan verir. Sonuncunun ticarət güzəştlərinin plan orta səviyyəsindən kənarlaşması mal dövriyyəsinin strukturunda dəyişikliklərin bu göstəriciyə təsiri haqqında mühakimə yürütməyə imkan verəcəkdir.

Lakin təhlilin bu cür metodikası mal dövriyyəsinin ümumi həcmi dəyişməz qaldıqda tətbiq oluna bilər, belə ki, malların xüsusi çəkisi ayrı-ayrı mal qruplarının satılmasının artması və ya azalması hesabına dəyişilə bilər.

Lakin təcrübədə mal dövriyyəsinin quruluşunun dəyişilməsi ilə yanaşı onun ümumi həcmi də dəyişir. Ona görə də mal dövriyyəsinin həm həcminin, həm də strukturunun təsirini eyni vaxtda nəzərə almaq lazımdır.

Əgər ticarət güzəştlərindən əlavə mallar üzrə tədavül xərclərinin səviyyəsinə dair məlumatlar da olarsa, mal dövriyyəsinin strukturunun rentabelliyiə təsirinin hesablanması da dəqiq olar. Bu baxımdan M.İ.Bakanovun pərakəndə ticarətdə mal qrupları üzrə tədavül xərclərinin öyrənilməsi nəticələrinə dair nəşr etdirdiyi məlumatlar müəyyən maraq doğurur.

Ayrı-ayrı mallar üzrə ticarət güzəştlərinin və tədavül xərclərinin müqayisə edilməsi, kənarlaşmaların (müsbət – mənfəət, mənfi – zərər) aşkar edilməsidir.

Ümumi gəlirin plan ölçüsü hər bir malın, mal qrupunun və alınmış nəticələrin cəmlənməsi yolu ilə təyin olunur. hesabat tərtib edən zaman malların satılmasından əldə edilən ümumi gəlir olduqca şərti, daha doğrusu satılmış və satılmamış mallar üçün ticarət güzəştlərinin orta faizi üzrə təyin olunur.

Ticarətdə ümumi gəlirin obyektiv zəruriliyi təsərrüfat müstəqilliyinə əsaslanan istehsal ilə istehlak sferası arasında müəyyən həddin olması ilə əlaqədardır. Təsərrüfat müəstəqilliyi əsasında fəaliyyət göstərən ticarət müəssisəsi ümumi gəlirin hesabına mal satışı üzrə sərf olunan xərcləri ödəməli və mənfəətlə təmin olunmalıdır. Ona görə də ticarət təşkilatının vaxtında ümumi gəlir ilə təmin

olunması onların rentabelli işləmələrinə və maliyyə göstəricilərinin yaxşılaşmasına səbəb olur. Bunun nəticəsidir ki, ticarətdə mənfəətin əsas əmələ gəlmə mənbəyi kimi ümumi gəlirin rolu əhəmiyyətli artmışdır.

Deyilənləri nəzərə alaraq ümumi gəlirin əmələ gəlməsi mənbələrinin təkmilləşdirilməsi üçün aşağıdakı kimi təsnifləşdirmək məqsədə müvafiqdir:

1. Mal satışından alınan gəlir. Bu malların satış qiymətilə satınalınma qiyməti arasındakı fərqdən ibarətdir. Mal satışından alınan gəlir ümumi gəlirin əsas hissəsini təşkil etməklə ticarət əlavədəri (üstəlikləri) hesabına yaranır.
2. Əlavə ticarət xidmətləri hesabına daxil olmalar. Buraya ticarət müəssisələri tərəfindən alınan üst geyimlərinin yenidən düzəldilməsi, parçanın biçilməsi satınalınan malların evlərə daşınması və bu kimi sair əməliyyatların yerinə yetirilməsindən daxil olmalar və s. aid etmək olar.

3.2. Kommersiya xərclərinin təhlili metodikasının təkmilləşdirilməsi

Ticarətdə xərclər tədavül sferasında istehsal prosesini davam etdirmək və istehlakı mallarını istehlakçılara çatdırmaq üçün cəmiyyətin əmək və maddi məsrəflərindən ibarətdir.

Ticarət təşkilatının tədavül xərcləri, malların daşınması, saxlanması, satış üçün hazırlanması, onların alınıb-satılması prosesinin həyata keçirilməsi, uçotun və mal göndərənlərlə hesablaşmaların aparılması, eləcə də ticarət müəssisələrinin idarə olunmasının təmin edilməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, tədavül xərclərinin səviyyəsinin aşağı salınması ticarətin rentabelliyinin mühüm mənbələrindən biridir.

2015-ci ildə tədavül xərclərini təhlil etmək üçün Qapalı Səhmdar Cəmiyyətinin bir sıra ticarət müəssisələrinin hesabat məlumatlarından istifadə edərək mal dövriyyə həcminin tədavül xərclərinə təsirini müəyyən edək.

Cədvəl 13

Mal dövriyyə həcminin xərclərə təsirinin təhlili

Univermaqlar	Mal dövriyyəsi (min manatla)			Tədavül xərclərinin səviyyəsi (faizlə)			Tədavül xərcləri (min manatla)				
										o cümlədən	
	Plan	Hesabat	Kənarlaşma +, -	Plan	Hesabat	Kənarlaşma +, -	Plan	Hesabat	Kənarlaşma +, -	Mal dövriyyəsinin həcmi hesabına	Tədavül xərclərinin orta səviyyəsi hesabına
1. Mərkəzi Univermaq	74342,0	77171,0	+2829,0	3,32	3,28	-0,04	2471,0	2531,0	+60,0	+94,0	-30,9
2. Bakı Univermağı	37000,0	37552,0	+552,0	3,50	3,15	-0,35	1184,5	1182,8	-1,7	-	-
3. Sumqayıt Univermağı	4310,4	4318,7	+8,3	2,05	1,95	-0,10	842,4	842,1	-0,3	-	-
4. 1 saylı Univermaq	8003,0	8160,1	+157,1	2,31	2,38	+0,07	194,0	198,2	+4,2	+3,7	+5,7
5. 2 saylı Univermaq	8392,0	8080,3	-311,7	3,06	2,94	-0,12	237,3	237,6	+0,3	-9,5	-10,7
	132047,4	135282,1	+3234,7	3,73	3,68	-0,05	4929,2	4991,7	-	-	-

Cədvəldən görünür ki, tədavül xərclərinin artıq sərfi məbləği Mərkəzi Univermaq üzrə 60,0 min manat və ya mal dövriyyəsinə görə 0,04%, 1 saylı Univermaq üzrə 4,2 min manat və ya 0,07% və 2 saylı Univermaq üzrə uyğun olaraq 0,6 min manat və ya 0,12% olmuşdur.

Tədavül xərcləri məbləğində təsir göstərən amillər mal dövriyyəsinin həcmi və tədavül xərclərinin orta səviyyəsi təsir göstərmişdir. Həmin amillərin təsirini aşağıdakı düsturlarla hesablanmasını təklif edirik.

Məsələn, tədavül xərclərinin orta səviyyəsi planlaşdırılmış mal dövriyyəsinə görə aşağıdakı düsturla hesablanır:

$$U_0=\frac{M_d \times T_{x.o}}{100}$$

Burada U_0 – plan üzrə tədavül xərcləri

M_d – plan üzrə mal dövriyyəsi

$T_{x.o.}$ – tədavül xərclərinin orta plan səviyyəsidir.

Mal dövriyyəsinin həqiqi həcmi və plan normaları məlum olduqda tədavül xərcləri aşağıdakı kimi olardı:

$$U=\frac{M_1 \times T_{x.o}}{100}$$

Burada M_1 – həqiqi mal dövriyyəsi.

Həqiqi tədavül xərcləri məlum olduqda isə aşağıdakı kimi olar:

$$U_1=\frac{M_1 \times T_{x.1}}{100}$$

Burada U_1 – tədavül xərclərinin həqiqi səviyyəsi.

İndi isə həmin göstəriciləri Mərkəzi Univermaq, 1 və 2 saylı Univermaqların məlumatları əsasında hesablayaq, çünki tədavül xərclərinin mütləq artımı həmin ticarət müəssisələrində müşahidə olunmuşdur.

1. Mərkəzi Univermaq üzrə:

Tədavül xərclərinin plan səviyyəsi:

$$U_0=\frac{M_1 \times T_{x.o}}{100}=\frac{74342{,}0 \times 3{,}32}{100}=2468{,}1 \text{ min manat}$$

Həqiqi mal dövriyyəsi və plan üzrə tədavül xərclərinə görə:

$$U=\frac{M_1 \times T_{x.1}}{100}=\frac{77171{,}0 \times 3{,}32}{100}=2562{,}1 \text{ min manat}$$

Həqiqi mal dövriyyəsi və həqiqi tədavül xərclərinə görə:

$$U_1=\frac{M_1 \times T_{x.o}}{100}=\frac{77171{,}0 \times 3{,}28}{100}=2531{,}2 \text{ min manat}$$

Beləliklə:

1. Mal dövriyyəsinin artımı.

Tədavül xərclərini 2562,1 min manat – 2468,1 min manat = +94,0 min manat artırmışdır.

2. Tədavül xərclərinin orta səviyyəsinin azalması xərcləri də 2531,2 min manat – 2562,1 min manat = -30,9 min manat azalmışdır.

Yekunu: 2531,2 min manat – 2468,1 min manat = 63,1 min manat.

Bu qayda ilə 1 və 2 saylı univermaqlar üzrə də hesablayaq və nəticələrini cədvəldə qeyd edək.

1 saylı univermaq üzrə:

Tədavül xərclərinin plan səviyyəsinə görə:

$$U_0=\frac{8003,0\times2,31}{100}=184,8 \text{ min manat}$$

Həqiqi mal dövriyyəsi və plan üzrə tədavül xərclərinə görə:

$$U=\frac{8160,1\times2,31}{100}=188,5 \text{ min manat}$$

Mal dövriyyəsinin və tədavül xərclərinin həqiqi səviyyəsinə görə:

$$U_1=\frac{8160,1\times2,38}{100}=194,2 \text{ min manat}$$

Beləliklə:

1. Mal dövriyyəsinin artımı tədavül xərclərini 188,5 min manat – 184,8 min manat = +3,7 min manat artmışdır.

2. Tədavül xərclərinin orta səviyyəsinin artması xərcləri 194,2 min manat – 188,5 min manat = +5,7 min manat artmışdır.

Yekunu: 194,2 min manat – 184,8 min manat = +9,4 min manat

2 saylı univermaq üzrə:

Tədavül xərclərinin plan səviyyəsinə görə:

$$U_0=\frac{8392,0\times3,06}{100}=256,7 \text{ min manat}$$

Həqiqi mal dövriyyəsi və plan üzrə tədavül xərclərinə görə:

$$U=\frac{8080,3\times3,06}{100}=247,2 \text{ min manat}$$

Mal dövriyyəsinin və tədavül xərclərinin həqiqi səviyyəsinə görə:

$$U_1=\frac{8080,3\times2,94}{100}=236,5 \text{ min manat}$$

Beləliklə:

1. Mal dövriyyəsinin azalması tədavül xərclərini 247,2 min manat – 256,7 min manat = -9,5 min manat azalmışdır.

2. Tədavül xərclərinin orta səviyyəsinin azalması isə xərcləri 236,5 min manat – 247,2 min manat = -10,7 min manat azalmışdır.

Yekunu: 247,2 min manat – 256,7 min manat = -9,5 min manat.

Təhlil nəticələrindən görünür ki, mal dövriyyəsinin artması uyğun olaraq tədavül xərclərini artırır. 2 saylı univermaq üzrə mal dövriyyəsinin həcmi hesabına tədavül xərcləri 9,4 min anat azalmış olsa da, bunu müsbət nəticə hesab etmək olmaz. Çünki həmin ticarət müəssisələrində mal dövriyyəsi planı kəsirlə yerinə yetirilmişdir. Tədavül səviyyəsinin orta səviyyəsinin azalması hesabına isə tədavül xərcləri Mərkəzi Univermaqda 30,9 min manat, Xətai Univermağında isə 10,7 min manat azaldılmışdır. Lakin 1 saylı univermaqda isə tədavül xərcləri də 5,7 min manat artmışdır.

Həqiqi mal dövriyyəsinə görə tədavül xərclərinin bütün məbləğinin hesablanması qaydası tədavül xərclərinin bütün maddələrinin mal dövriyyəsinin həcmindən bərabər şəikldə asılı olmasını nəzərdə tutur. Bu cür metodika istər ticarət idarəsində, istərsə də ticarət təşkilatında tədavül xərclərinin təhlili təcrübəsində tətbiq olunur.

Ayrı-ayrı univermaqlar üzrə tədavül xərclərinin mənfəətə təsirini aşağıdakı cədvəlin məlumatlarından görünür.

Cədvəl 14

Açıq Səhmdar Cəmiyyətinin univermaqları üzrə tədavül xərclərinin mənfəətə təsirinin təhlili

Ticarət təşkilatı	Həqiqi mal dövriyyəsi (min manatla)	Tədavül xərcləri (mal dövriyyəsinə nisbətən %-lə)			Tədavül xərcləri səviyyəsindəki kənarlaşmalar hesabına mənfəətin dəyişməsi +, -
		Plan	Həqiqi	Kənarlaşma +, -	
Mərkəzi Univermaq	77171,0	3,32	3,28	-0,04	-30,8
Bakı Univermağı	37552,0	3,50	3,15	-0,35	-131,4
Sumqayıt Univermağı	4318,7	2,05	1,95	-0,10	-4,3
1 saylı Univermaq	8160,1	2,31	2,38	+0,07	+5,7
2 saylı Univermaq	8080,3	3,06	2,94	-0,12	-9,6
Cəmi:	135282,1	3,73	3,68	-0,05	-67,6

Məlumdur ki, tədavül xərclərinin səviyyəsindəki kənarlaşmalar hesabına mənfəətin dəyişilməsini hesablamaq üçün həqiqi mal dövriyyəsini həqiqi tədavül xərclərilə plan tədavül xərcləri arasındakı fərqə vurub 100-ə bölmək lazımdır.

Bütünlükdə həmin ticarət müəssisələri üzrə tədavül xərcləri səviyyəsi 0,05% azalması nəticəsində 67,6 min manat ($\frac{135282,1\times(3,68-3,73)}{100}$) əlavə mənfəət əldə edilmişdir.

İndi isə hər bir təicarət müəssisəsinə ayrılıqda baxaq:

1. Mərkəzi Univermaq: ($\frac{77171,0\times(3,28-3,32)}{100}$)= - 30,8 min manat

2. Bakı Univermağı: ($\frac{37552,0\times(3,15-3,50)}{100}$)= - 131,4 min manat

3. Sumqayıt Univermağı: ($\frac{4318,7\times(1,95-2,05)}{100}$)= - 4,3 min manat

4. 1 saylı Univermaq: ($\frac{8160,1\times(2,38-2,31)}{100}$)= +5,7 min manat

5. 2 saylı Univermaq: ($\frac{8080,3\times(2,94-3,06)}{100}$)= -9,6 min manat

Yuxarıdakı məlumatlardan aydın olur ki, təkcə 1 saylı univermaqda mal dövriyyəsinə görə tədavül xərcləri 0,07% artdığına görə 5,7 min manat az mənfəət əldə edilmişdir. Mərkəzi Univermaq üzrə tədavül xərclərinə 0,04% qənaət edilməsi hesabına 30,8 min manat əlavə mənfəət əldə edilmişdir.

Mənfəətlə işləmiş digər ticarət müəssisələrinin göstəriciləri də uyğun olaraq Sumqayıt Univermağı üzrə – 0,10% və 4,3 min manat və 2 saylı Univermaq üzrə isə 0,12% və 9,6 min manat olmuşdur.

Xərclərin aşağı salınmasının şərtləri, amilləri, ehtiyatları, xərclərin yerinə yetirdiyi funksiyalar müxtəlifdir. Ona görə də xərclərin mahiyyətinin araşdırılması bu xərclərin aşağı salınması ehtiyatlarının aşkar edilməsi onların düzgün aşkar edilməsi onların düzgün təsnifləşdirilməsindən asılıdır. Xərclərin hazırda mövcud olan təsnifatı bazar iqtisadiyyatı şəraitində müasir tələblərə tam cavab vermir. Bu təsnifatlarda təyinatı və iqtisadi məzmununa görə müxtəlif olan xərc maddəli eyni

bir qrupa daxil edilir ki, bu da onların düzgün təhlil edilməsini və xərclərin aşağı salınması ehtiyatlarının aşkar edilməsini çətinləşdirir.

3.3. Ticarət təşkilatında səmərəliliyin qiymətləndirilməsinin təkmilləşdirilməsi

Mənfəət müəssisə işinin əsas keyfiyyət göstəricisi olub, onun təsərrüfat fəaliyyətinin son maliyyə nəticələrini xarakterizə edir. Yeni şəraitdə mənfəət müəssisə və təşkilatın kollektivləri və rəhbərlərinin xüsusi diqqət predmetinə çevrilmişdir. Müəyyən dövr ərzində plan və hesabat mənfəət göstəricilərinin təhlili planının yerinə yetirilməsi dərəcəsini qiymətləndirməyə, plan və hesabat məlumatları arasındakı kənarlaşmanın meylini və səbəblərini təyin etməyə və müəssisənin mənfəətliliyinin yüksəldilməsinə yönəldilmiş tədbirlər sisteminin işlənib hazırlanmasına imkan verir. Fəaliyyətini təhlil etdiyimiz ticarət müəssisələrində mənfəətin təhlili göstərmişdir ki, univermağın 1 və 2 saylı filiallarda mənfəət planını müvafiq olaraq 129% və 108% yerinə yetirmişdir. 5 saylı filialda isə mənfəət planını 98,9% yerinə yetirmişdir.

Mənfəətin həqiqi ölçüsünün plandan kənarlaşması bir sıra amillərin qarşılıqlı fəaliyyəti nəticəsində baş vermişdir ki, onlar da tədqiq olunmalıdır. Mənfəət planını yerinə yetirməyən və təsərrüfat fəaliyyətini kəsirlə başa vuran mağazalara xüsusi diqqət yetirilməlidir.

Ümumi gəlir və tədavül xərclərinin təhlilindən sonra mənfəətin amilli təhlili heç bir çətinlik törətməyəcəkdir, çünki mənfəət ümumi gəlir məbləği ilə tədavül xərclərinin kəmiyyətini müəyyən edən amillər, eyni zamanda mənfəətin həcminə təsir edən amillərdir.

Mənfəətin həcmini müəyyən edən əsas amillər aşağıdakılardan ibarətdir:

– mal dövriyyəsinin həcmi və quruluşu;

– qeyri-ticarət fəaliyyətinin (əgər belə vardırsa) nəticələri;

– planlaşdırılmayan gəlirlər və itkilərin nisbəti.

Hesabat mənfəətinin plan mənfəətindən kənarlaşması müəyyən səbəblərdən irəli gələ bilər. Bunları da amil adlandırmaq olmaz. Belə səbəblərə hər şeydən əvvəl planlaşdırmadakı səhvlər daxildir.

Tədqiqatlar göstərir ki, təcrübədə ümumi gəlir və tədavül xərcləri üzrə mağazaların planları mal dövriyyəsinin quruluğu ilə əlaqələndirmədən müəyyən olunur. Bu isə təbiidir ki, mənfəət planının reallığında öz əksini tapacaqdır. Əvvəlki paraqrafların məlumatlarından istifadə edərək mənfəət planının əsaslandırılmasını yoxlayaq. Belə ki, 304 saylı mağaza üzrə mənfəət planı 0,32 min manat yüksəldilmişdir. 1 və 2 saylı univermaqların filiallarında uyğun olaraq 0,25 min manat və 0,4 min manat azaldılmışdır. Əgər planlaşdırmadakı səhvləri aradan qaldırsaq görərik ki, 304 saylı filial üzrə mənfəət planını 0,2 min manat kəsirlə yerinə yetirilməsi əvəzinə həqiqətdə 0,12 min manat artıqlaması ilə yerinə yetirmişdir. 2 saylı filialda isə planın 0,2 min manat artıqlaması ilə yerinə yetirildiyi halda 0,2 min manat kəsirlə yerinə yetirilməsi aşkar edilmişdir.

Beləliklə, univermağın işini qiymətləndirməkdən əvvəl cari ilin planın nə dərəcədə əsaslandırıldığı və mal dövriyyəsinin həcmi və strukturu nə dərəcədə əlaqələndirildiyi yoxlanılmalıdır. Reallığı yoxladıqdan sonra mənfəətin həqiqi məbləğlərinin plan məbləğindən kənarlaşmasının hansı amillərin təsiri nəticəsində baş verdiyini müəyyən etmək lazımdır. Mənfəət məbləğinin plandan kənarlaşması ümumi gəlir və tədavül xərcləri məbləğinin həqiqi səviyyəsinin plan səviyyəsindən kənarlaşmasının nəticəsidir. Əvvəlki paraqrafların hesablamalarından istifadə etməklə ümumi gəlirin, xərclərin mal dövriyyəsinin həcmi və strukturunun mənfəətə təsiri müəyyən edilmişdir. Mənfəət planının yerinə yetirilməsinə mal dövriyyəsinin strukturunun dəyişilməsi yüksək təsir göstərmişdir. Təhlil edilən dövr ərzində univermaqda həqiqi olaraq əsasən planda nəzərdə tutulduğundan aşağı ticarət güzəşti və xərc tutumu olan mallar satılmışdır. Bunun nəticəsində də tədavül xərclərinin aşağı düşməsinə baxmayaraq planla müqayisədə ümumi gəlir əhəmiyyətli dərəcədə azalmışdır.

Bu iki amilin qarşılıqlı fəaliyyəti nəticəsində univermağın 4 və 9 saylı filiallar üzrə göstəricilər müvafiq olaraq 0,16 min manat və 0,27 min manat azalmışdır. 305 saylı univermaqda mal dövriyyəsinin quruluşunun dəyişilməsi nəticəsində plana nisbətən tədavül xərclərinin azalması ümumi gəlirin azalmasından daha çox olmuşdur ki, nəticədə mənfəət 0,83 min manat artmışdır.

Malların satılması planın artıqlaması ilə yerinə yeitirlməsi gəlir məbləğinin yüksəlməsinə və tədavül xərclərinin azalmasına səbəb olmuşdur. Belə ki, ümumi gəlirin artım sürəti tədavül xərclərinin azalmasına və mənfəət məbləğinin çoxalmasına səbəb olmuşdur. Təhlil prosesində nəzərə almaq lazımdır ki, müəssisənin balans mənfəətinə planlaşdırılmayan gəlirlər və itkilər də təsir göstərir. Bir çox hallarda planlaşdırılmayan itkilər təsərrüfatsızlıq üzündən baş verir. Məsələn, vaxtının keçməsinə görə debitor borclarının silinməsi operativ maliyyə işində və mühasibat uçotunda nöqsanların olduğuna, habelə iddia işlərinin pis qurulduğuna dəlalət edir. Qeyd etmək lazımdır ki, planlaşdırılmayan gəlirlər də bəzən müəssisənin yaxşı işinin nəticəsi olmur.

Hesabat dövründə aşkar olunan ötən illərin mənfəəti uçotda nöqsanların olduğunu göstərir. Ona görə də müəssisənin planlaşdırılmayan gəlir və itkilərin dərin təhlili aparılmalıdır.yaranma mənbələrini, planlaşdırılmayan gəlir və itkilərin təhlili ayrı-ayrı xərc maddələri üzrə günahkar şəxsləri müəyyən etmək məqsədilə təhlil olunmalıdır.

Beləliklə, univermaq üzrə mənfəətin təhlili göstərdi ki, mənfəət planının artıqlaması ilə yerinə yetirilməsinə mal dövriyyəsinin həcminin artması və tədavül xərclərinin azalması təsir göstərmişdir. Bu iki amil ticarət müəssisələrinin təsərrüfatdaxili yığımının əsas mənbələridir və ona görə də ticarət səmərəliliyin yüksəldilməsi işçilərinin diqqət qənaət rejiminin möhkəmləndirilməsinə və əhaliyə mal satışının artırılmasına yönəldilməlidirlər.

Fəaliyyətini təhlil etdiyimiz Mərkəzi Univermaq və onun filiallarında reallaşdırılmış ticarət güzəştləri üzrə planın yerinə yetirilməməsi üzündən səmərəlilik göstəricisi olan mənfəət üzrə plan yerinə yetirilməmişdir. Bu isə öz növbəsində

reallaşdırılmış ticarət güzəştləri üzrə planın yerinə yetirilməməsi əsas etibarı ilə plan tapşırıqlarının düzgün əsaslandırılmamasından irəli gəlmişdir. Beləliklə, ticarətdə səmərəlilik göstərici olan ümumi gəlirin, tədavül xərclərinin və mənfəətin planlaşdırılmasında buraxılan səhvləri aşkara çıxarmağa imkan vermişdir.

Əsaslandırılmış plan tapşırıqları ticarət müəssisələrinin işinin yaxşılaşdırılmasına, yeni şəraitdə səmərəlilik göstəricisi olan mənfəətin artımına imkan vermir. Bazar iqtisadiyyatı şəraitində mənfəətin rolunun artırılması, texniki-iqtisadi normativlərin və ticarətdə təhlilin bütün vasitələrinin köməyilə göstəricilərin planlaşdırılması səviyyəsinin daha da təkmilləşdirilməsi məsələsi qarşıda durur. Bu baxımdan mənfəətin təhlilində riyazi-statistik üsulların, xüsusilə korrelyasiya üsulunun tətbiqi böyük elmi və praktiki əhəmiyyət kəsb edir.

Korrelyasiya təhlilinin praktik əhəmiyyəti ondadır ki, onların köməyi ilə plan dövrü üçün istər bütünlükdə ticarət təşkilatc, istərsə də hər bir univermaq üzrə mənfəətin həcmini təyin etmək olar.

Ticarət müəssisə və təşkilatının mütləq mənfəət məbləğinin təhlili onların fəaliyyətinin düzgün xarakteristikasını verə bilməz. Ticarət müəssisələrinin və təşkilatının işinin tam qiymətləndirmək üçün səmərəlilik göstəricisi olan nisbi göstəricidən – rentabellik səviyyəsindən istifadə olunur ki, bu da malların reallaşdırılmasından əldə olunan mənfəətin mütləq məbləğinin mal dövriyyəsinə nisbəti (ticarət müəssisələrinin rentabellik səviyyəsi) kimi hesablanır.

Beləliklə, fikrimizcə, ticarət müəssisələri rentabelliyinin xarakteristikasının ümumiləşdirilməsi üçün iki göstəricidən istifadə olunmalıdır: əsas fondlar və dövriyyə vəsaitlərinə görə hesablanmış rentabellik səviyyəsi.

Tədavül sferasında istifadə olunan əsas vəsaitlərin miqdarı icarəyə götürülmüş binalar hesabına xeyli artır. Nəzərə almaq lazımdır ki, mal tədavülünün miqdarı artdıqca və onun maddi-texniki bazası inkişaf etdikcə əsas və dövriyyə vəsaitlərinin həcmi xeyli artacaqdır. Bu göstəricinin iqtisadi məzmunu müəssisələrin istehsal fondlarından daha səmərəli istifadə etməyə istiqamətləndirilir. Ticarət müəssisələrinin istehsal fondları da təsərrüfatda fəaliyyət göstərən istehsal fond-

larının tərkibinə daxil olub və eyni funksiyaları yerinə yetirir. Deməli, müəssisələr arasında olan iqtisadi münasibət istehsal vasitələrinin ictimai mülkiyyəti olaraq yeni şəraitdə ticarət müəssisələrinə təhkim edilməsindədir. Yeni şərait isə bütün ticarət müəssisələrini istehsal fondlarından daha səmərəli istifadə etməyə məcbur edir.

Bütün bunlar ticarətin istehsal fondlarından daha səmərəli istifadəni əks etdirən ümumi göstərici olmağın obyektiv surətdə zəruriləşdirir. Bu göstərilən ticarət müəssisələrinin maliyyə təsərrüfat fəaliyyətini xarakterizə edən göstəricilərini vahid bir tam halında birləşdirilməli və ticarət təşkilatı işinin səmərəliliyini göstərməlidir.

Bu baxımdan Rusiya iqtisadçılarından A.Abaturovun, B.Nesterenkonun, R.Ustinovanın, T.Blankanın təklifləri xüsusi əhəmiyyətə malikdir.

Məsələn, B.Nesterenko ticarət müəssisə və təşkilatının rentabellik səviyyəsini mənfəətin əsas və normallaşdırılmış dövriyyə fondlarına olan nisbəti kimi götürülməsini təklif edir[1]:

$$P=\frac{M}{Ə_d \cdot f+N_d \cdot f}$$

Burada, P – rentabellik səviyyəsi;

$Ə_{d \cdot f}$ – əsas dövriyyə fondları;

$N_{d \cdot f}$ – normalaşdırılmış dövriyyə fondlarıdır.

Bu ifadəni müəllif daha da differensiyalaşdıraraq əsas fondların və normalaşdırılmış dövriyyə vəsaitlərindən daha səmərəli istifadə üçün rentabellik səviyyəsini ayrı-ayrılıqda müəyyən edilməsini təklif edir. Yəni, birinci halda mənfəətin xüsusi çəkisinin əsas vəsaitlərə olan nisbəti, ikinci halda isə mənfəətin normalaşdırılmış dövriyyə vəsaitlərinə olan nisbəti kimi. Bu göstərici mənfəətlə xüsusi əsas fondlar və normalaşdırılmış dövriyyə vəsaitləri arasındakı qarşılıqlı əlaqəni ifadə edir və o, ticarət müəssisələrinin fəaliyyətini qiymətləndirərkən yığımın artımını və istehsal fondlarından səmərəli istifadəni şərtləndirir.

[1] Нестеренко Б.Г. Экономическая эффективность общественных затрат в торговле. Автореферат на соискание ученой степи кандидата экономических наук. М., 2000.

Bununla yanaşı rentabellik səviyyəsinin müəyyən edilməsinin bu metodunun çatışmayan cəhətinə də fikir verilməlidir. Bu ondan ibarətdir ki, hesablama zamanı təkcə xüsusi əsas fondar nəzərə alınır, ancaq hazırda ticarətdə istifadə olunan bütün əsas fondların 50%-ə qədəri təşkil edən icarə edilmiş əsas fondlar və eləcə də normalaşdırılmayan dövriyyə vəsaitləri hesablaşmada iştirak etmir. Əslində isə rentabellik səviyyəsi ticarətdə bütün əsas fondlardan və dövriyyə vəsaitlərindən (xüsusi, normalaşdırılmayan, normalaşdırılan və icarə olunan) istifadə edilməsinin iqtisadi səmərəliliyini əks etdirməlidir.

Rusiya iqtisadçı alimlərdən iqtisadi ədəbiyyatlarda rentabellik səviyyəsinin müəyyən edilməsinə dair müxtəlif metodlar haqqında yazılar vardır.

Məsələn, N.Z.Skomartsev[1] pərakəndə ticarət müəssisələrində rentabellik səviyyəsini aağıdakı formada hesablanmasını təklif edir:

$$P=\frac{M}{\partial_f + E_m}\times 100$$

Burada, P – rentabelliyi;

M – mənfəəti;

$Ə_f$ – əsas fondların orta illik dəyərini;

E_m – orta illik mal ehtiyatlarını əks etdirir.

Fikrimizcə, belə göstərici ticarət müəssisələrində istehsal vasitələrindən tam və səmərəli istifadə olunmasını əks edirmir. Çünki həmin düstur bütün dövriyyə vəsaitlərini deyil, ancaq mal ehtiyatlarını nəzərə alır.

Ona görə də ticarətin rentabellik səviyyəsi göstəricisi mənfəətin əsas və dövriyyə fondlarının orta dəyərinə olan nisbəti kimi hesablanmalıdır ki, bu da aşağıdakı düstur ilə ifadə oluna bilər:

$$R_f=\frac{M}{\partial_f + D_v}$$

Burada, R_f – formalara görə rentabellik səviyyəsini;

[1]Скомартсев Н.З. Определение рентабельности розничного торгового предпрятия. Сборник трудов ЛИСТ. Выпуск XXIV. Л., 2008

M – mənfəətin məbləğini;

$Ə_f$ – əsas fondların orta dəyərini;

D_v – dövriyyə vəsaitlərinin orta dəyərini əks etdirir.

Dissertasiya işinin sonrakı gedişində ($Ə_f + D_v$) ifadəsini I_f ilə iarə edəcəyik.

Rüblər üzrə rentabellik səviyyəsi də həmin düstur ilə hesablanır. Lakin kəsrin məxrəcinə rüblük vaxtın il daxilindəki xüsusi çəki əmsalı əlavə edilməlidir.

Daha doğrusu,

$$P_{f^I}=\frac{M}{I_f \times k} \quad (1)$$

Mənfəətin məbləği satılmış ticarət güzəşti ilə tədavül xərcləri fərqindən asılı olduğu üçün rentabellik səviyyəsi belə də hesablana bilər.

$$P_{f^I}=\frac{T_g - T_x}{I_f} \times 100 \quad (2)$$

Burada, T_g – satılmış mal üzrə ticarət güzəştini;

T_x – tədavül xərclərini göstərir.

Əgər ilkin göstəricilərdə ümumi gəlir və tədavül xərcləri mütləq qiymətdə deyil, dövriyyəyə görə faizlə ifadə olunarsa, mənfəətin məbləğini mal dövriyyəsini ticarət güzəşti ilə tədavül xərclərinin faizlə ifadə olunmuş fərqinə vurub 100-ə bölünməsi yolu ilə tapmaq olar.

$$M=\frac{M_{döv}(T_g\% - T_x\%)}{100}$$

Mənfəətin bu qiymətini $P_{f^I}=\frac{M}{I_f \times k}$ düsturunda yerinə yazsaq, alarıq

$$P_{f^I}=\frac{M_{döv}(T_g\% - T_x\%)}{I_f \times k}$$

Məlum olduğu kimi (T_g% - T_x%) fərqi mənfəətin mal dövriyyəsinə olan nisbətinin faizlə ifadəsidir ($P_{m\ döv}$).

Beləliklə, rentabellik səviyyəsi göstəricisi belə hesablana bilər:

$$P_{f^I}=\frac{M_{döv}}{I_f} \times P^I_{döv}$$

Əsas və dövriyyə fondlarına görə rentabellik səviyyəsi göstəricisi ticarət müəssisələri fəaliyyətinin bütün tərəflərini özündə əks etdirdiyi üçün onun işinin səmərəliliyi daha dolğun əks etdirilir. Əsas fondların iqtisadi səmərəliliyi əsas fondlara kapital qoyuluşunun hər manatına düşən mal dövriyyəsi ilə xarakterizə olunuğu üçün əsas fondların iqtisadi effektliyi belə hesabalana bilər:

$$E_{əf}=\frac{M_{döv}}{\partial_f}$$

Dövriyyə vəsaitlərindən istifadə effektliyi onun dövriyyə sürətindən asılıdır.

Dövriyyə sürəti isə belə hesablanır:

$$E_{gv}=\frac{M_{döv}}{D_v}$$

Düsturunda müəyyən çevirmələr aparsaq, aşağıdakı şəklə düşər:

$$P_f^I=\frac{M_m döv^I}{\frac{M_{döv}}{E_{\partial f}}+\frac{1}{E_{dv}}}$$

Ifadəsində görünür ki, rentabellik səviyyəsi mənfəət və əsas və dövriyyə fondlarından səmərəli istifadə ilə düz mütənasibdir.

Rentabellik səviyyəsi hesablanarkən əsas və dövriyyə fondlarının məbləği düzgün hesaba alınmalıdır.

İqtisadçılar arasında belə dəqiq bir fikir yoxdur ki, rentabellik səviyyəsi müəyyən edilərkən əsas və dövriyyə fondları hansı məbləğdə qiymətləndirilsin. Bir qrup iqtisadçılar belə fikir irəli sürürlər ki, rentabellik səviyyəsi xüsusi əsas fondlara görə, digərləri ticarətdə fəaliyyət göstərən bütün əsas vəsaitlərə görə hesablanmalıdır.

Belə ki, B.P.Baykova görə, rentabellik səviyyəsi hesablanarkən təsərrüfat fondlarınn məbğəlindən icarəyə götürülmüş fondların məbləği çıxılaraq subhesaba aid edilməlidir.

Bizcə, təsərrüfat fondlarına görə rentabellik səviyyəsi hesablanarkən nəinki icarəyə götürülmüş fondların məbləği nəzərə alınmalıdır, hətta həmin amortizasiya fondları hesabalanan bütün məbləğ üzrə diqqət mərkəzində durmalıdır. Bu is öz

növbəsində rentabellik səviyyəsində ticarətdəki kapital qoyuluşunun hər manatından səmərəli istifadə olunmasını göstərir.

Rentabellik səviyyəsinin hesablanmasında, bizim fikrimizcə, professor A.I.Abaturov düzgün mövqedə durur. Onun fikrincə, ticarət müəssisələrinin fəaliyyətinin nəticələrini düzgün təhlil etmək məqsədilə rentabellik səviyyəsi pərakəndə mal dövriyyəsinə, əsas və dövriyyə fondlarına görə hesablanmalıdır. Bu zaman əsas vəsaitlərə xüsusi əsas vəsaitlərlə yanaşı icarəyə götürülmüş fondlar, sənaye müəssisələri və təşkilatı tərəfindən verilmiş fondlar da aid edilməlidir.

Ticarət müəssisə və təkilatlarının rentabellik səviyyəsinin əsas və dövriyyə vəsaitlərinə görə hesablanması, rentabellik səviyyəsinin pərakəndə mal dövriyyəsinə müəyyən edilməsinə heç cür mənfi təsir göstərmir, əksinə, onu tamamlayaraq ticarət müəssisələrinə maliyyə fəaliyyətini dəqiq əks etdirir və təsərrüfat fondlarından daha effektli istifadə olunma səviyyəsini göstərir. Bunu Bakı şəhər qapalı səhmdar cəmiyyətinin ticarət müəssisələrinin 2015-ci il göstəriciləri üzrə nəzərdən keçirək.

Cədvəl 15

Rentabellik səviyyəsinin əsas və dövriyyə fondlarına görə hesablanmasının təhlili

Ticarət müəssisələri	Mal dövriyyəsi (min manat)	Əsas və dövriyyə fondları (min manat)	Balans mənfəəti (min manat)	Mal dövriy-yəsinə görə rentabellik	Əsas və dövriyyə fondlarına görə rentabellik
Mərkəzi Univermaq	77171,0	9307,0	2297,0	3,10	24,5
Bakı Univermağı	37552,0	4688	1015,0	2,7	21,6
1 saylı Univermaq	8160,2	994,5	306,0	3,74	30,7
Sumqayıt Univermağı	4319,0	471,4	174,2	4,03	36,9
2 saylı Univermaq	8080,3	1543,1	226,3	2,80	14,6
Xəzər Univermağı	4440,5	533,3	84,5	1,90	15,8

Cədvəl məlumatlarından göründüyü kimi, 2015-ci ildə mal dövriyyəsinə görə hesablanmış rentabellik səviyyəsi Sumqayıt, 1 saylı və Mərkəzi Univermaqlarda daha yüksək olmuş və müvafiq olaraq 4,03%, 3,74% və 3,10% təşkil etmişdir. Qeyd etmək lazımdır ki, rentabellik səviyyəsi fondlara görə hesablandıqda da bu

ticarət müəssisələri daha yüksək göstəricilərə nail olmuşdur. Belə ki, Sumqayıt Univermağında fondlara görə rentabellik səviyyəsi 36,9%, 1 saylı Univermaqda 30,7% və Mərkəzi Univermaqda 24,5% təşkil etmişdir. Buradan da belə nəticəyə gəlmək olar ki, Bakı Univermağında (21,6%), 2 saylı Univermaqda (14,6%) və Xəzər Univermağında (15,8%) fondlardan nisbətən pis istifadə olunmuşdur. Bunun nəticəsində həmin ticarət müəssisələrinin təsərrüfat fəaliyyətinin yekun göstəriciləri nisbətən pisləşmişdir.

Qeyd etməliyik ki, bu göstəricinin ticarətdə tətbiqi məsələsi üzrə xarici iqtisadçılar arasında prof. M.İ.Bakanovun fikrincə, əsas və dövriyyə fondlarına görə hesablanmış rentabellik göstəricisi mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, ticarətin yeni şəraitdə idarə olunması təcrübəsində nəinki fondlardan səmərəli istifadə edilməsinə, hətta rentabellik səviyyəsinin təhlilində də kifayət qədər fikir verilmir. Bütün təhlil, plan göstəricilərinin həqiq göstəricilərlə müqayisəsi ilə tamamlanır. Lakin başlıca vəzifə ticarət müəssisələrinin fəaliyyətini dəqiq müəyyən etmək üçün səmərəlilik göstəricisi olan rentabellik səviyyəsinin təhlili və rentabellik səviyyəsinin yüksəldilməsinə təsir edən amillərin araşdırılmasından, daxili ehiyat mənbələrinin aşkara çıxarılmasından və onlardan səmərəli istifadə edilməsi yollarının müəyyənləşdirilməsindən ibarətdir.

Ticarətin rentabelliyi mənfəətin nisbi kəmiyyətidir. Ticarət təşkilatının mənfəəti ilə bu müəssisələrin reallaşdırdığı malların satış və alış qiymətləri arasındakı fərqdən xərcləri çıxdıqdan sonra qalan hissəsidir. Ona görə də ticarət təşkilatının rentabelliyi xərclərin mahiyyətinin izah edilməsi, onların düzgün təsnifləşdirilməsi, xərclərin aşağı salınması, əlavə ehtiyatların aşkar edilməsi və səmərəli istifadə olunmasından bilavasitə asılıdır.

NƏTİCƏ

Aparılan tədqiqat işinin nəticələri göstərir ki, ticartin səmərəliliyini səciyyələndirən mənfəət və rentabellik başqa göstəricilərlə müqayisədə kommersiya strukturlarında maliyyə təsərrüfat fəaliyyətinin nəticələrini daha tam əhatə edir. Bu göstəricilərdə kommersiya fəaliyyətinin kəmiyyət tərəfləri, daha doğrusu, kommersiya strukturlarında keyfiyyətin yüksəldilməsi, elmi-texniki tərəqqinin sürətləndirilməsi, ticarətdə fondlardan istifadənin yaxşılaşdırılması, əməyin təşkilinin təkmilləşdirilməsi, əmək məhsuldarlığının yüksəldilməsinə, eləcə də xərclərin azaldılmasında öz əksini tapır.

Ticarətin səmərəliliyini səciyyələndirən ümumi gəlir, tədavül xərcləri, mənfəət və rentabellik başqa göstəricilərlə müqayisədə müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin nəticələrini özündə daha tam əhatə edir. Bu göstəricilərdə kommersiya fəaliyyətinin kəmiyyət tərəfləri, daha doğrusu, mənfəətin yaranması, əhaliyə ticarət xidmətinin yüksəldilməsi, ticarət xidmətinin yaxşılaşdırılması, ticarətin əsas fondlarından istifadənin yaxşılaşdırılması, rentabelliyin yüksəldilməsi, eləcə də tədavül xərclərinin azaldılması öz əksini tapır.

Ümumi gəlir, tədavül xərcləri, mənfəət və rentabellik başqa göstəricilərlə müqayisədə ticarətin maliyyə təsərrüfat fəaliyyətinin nəticələrini və ticarətin səmərəliliyini daha tam əhatə edir.

Bazar münasibətləri şəraitində ticarətin mal ehtiyatları ilə təmin olunması və onlardan istifadə edilməsi sistemində köklü dəyişikliklə baş vermişdir. Bu dəyişikliklərə müvafiq olaraq mənfəətdən istifadənin təhlili və qiymətləndirilməsi metodikasına yenidən baxılması, təkmilləşdirilməsi və ona yeni aspektlərin əlavə edilməsi obyektiv zərurətə çevrilir. Çünki müasir dövrdə gəlirdən istifadəni xarakterizə edən əsas iqtisadi parametrlərin kompleks təhlilinin qüvvədə olan metodikası müasir informasiya sisteminin tələblərinə cavab vermir.

Ümumi gəlir, tədavül xərcləri, mənfəət və rentabellik kimi səmərəlilik göstəricilərinin dinamikasını obyektiv qiymətləndirmək mümkün olmur. Qeyd olunan

prblemlərin həlli ticarətin səmərəli təşkilinin ilkin şərti sayılan qiymətləndirmə prosesindən başlamaqla sistemli və kompleks şəkildə həyata keçirilə bilər.

Deyilənləri nəzərə alaraq, ticarətdə səmərəliliyin yüksəldilməsi məqsədilə aşağıdakı təklifləri irəli sürürük:

1. Mal dövriyyəsi az olan mağazalar qeyri-rentabelli işləyir. Bu mağazaları ixtisara salıb onların yaxın olan mağazaların nəzdindəki filialla birləşdirdikdə, hər işçi qüvvəsinin sayı azalar, əmək haqqına qənaət edilər və tədavül xərclərinin səviyyəsi aşağı düşər, eyni zamanda ticarətin səmərəliliyi yüksələr.

2. Tədavül xərclərinin aşağı salınması üçün birinci növbədə malların mərkəzləşdirilmiş qaydada daınmasını təşkil etmək lazımdır ki, bu da həm nəqliyyat xərclərinin aşağı düşməsinə, həm də işçi qüvvəsindən səmərəli istifadə olunmasına imkan verir.

3. Yaxşı olar ki, ümumi gəlir, tədavül xərcləri və gəlir üzrəində operativ nəzarət müəssisə rəbəri və ya baş (böyük) müasib tərəfindən beşgünlüklər, ongünlüklər, on beşgünlüklər üzrə aparılsın.

4. Rentabellik səviyyəsini yüksəltmək məqsədilə əmək məhsuldarlığı və əməyin ödənilməsi arasındakı nisbətə düzgün əməl olunması məqsədə uyğundur.

5. Malların mərkəzləşdirilmiş qaydada daşınmasını yaxşı təşkil etmək üçün avtomobil təsərrüfatının iriləşdirilməsinin üstünlükləri vardır. Belə ki, xırda təsərrüfatlara nisbətən iri təsərrüfatlarda əmək səmərəli təşkil edilir, daşınmanın xərcləri aşağı düşür və eləcə də inzibati idarə xərcləri ixtisar edilir.

6. Ticarətdə rentabellik səviyyəsinin hesablanması mənfəətin mal dövriyyəsi həcminə faizlə nisbəti yolu ilə həyata keçirilir. Ticarət təşkilatının təhlili zamanı əlavə göstərici olaraq mənfəət məbləğini əsas və dövriyyə vəsaitlərinin dəyərinə aid edilməsi yolu ilə hesablanmı rentabelliyi götürmək olar. Bu göstərici avadanlıqları ticarət meydançalarından və dövriyyə vəsaitlərindən istifadənin səmərəliliyini xarakterizə edir.

7. Əhalinin tələbini düzgün öyrənərək mal satanlarla uzun müddətli müqavilələr bağlamaq və bu müqavilələrin həcm, çeşid və müddət etibarilə yerinə yetirilməsinə nail olmaq.

8. Səmərəlilik göstəricisi olan mənfəət və rentabelliyin yüksəldilməsində tədavül xərclərinin aşağı salınması mühüm rol oynayır. Tədavül xərclərini ümumilikdə təhlil etməklə yanaşı, onu ayrı-ayrı xərc maddəlri üzrə təhlil edib ehtiyatları aşkar etmək lazımdır.

9. Malların çeşid strukturunun geniləndirilməsi və tədavül xərcləri səviyyəsinin aşağı salınması üçün əmək məhsuldarlığını daha da yüksəltməklə ticarətdə səmərəliliyi yüksəltmək olar.

10. Mənfəətin həcmini artırmaq və rentabellik səviyyəsini yüksəltmək məqsədilə ümumi mal dövriyyəsində ticarət güzəşti yüksək olan malların xüsusi çəkisini artırmağa ticarət təkilatlarında səmərəliyin yüksəldilməsinə səbəb olar.

11. Ticarətdə səmərəliliyi yüksəldilməsi malların çeşidinin və keyfiyətinin artırılması maddi nemətlər istehlakın daha yaxşı təşkil edilməsi ilə tsirin gücləndirilməsinə istehlakçıların tələbinin dolğun ödənilməsi və s. sosial-iqtisadi tədbirlər üçün əlverişli şərait yaradır.

12. Tədavül xərclərinin səviyyəsi ticarət təşkilatının səmərəliliyinin ən mühüm göstəricilərdən biridir. Tədavül xərcləri və mənfəət ticarət müəssisəsinin ümumi gəlirinin iki tərkib hissəsidir və bir-birinə tərs mütənasib olaraq dəyişir. Məsələn, müəssisədə tədavül xərclərinin səviyyəsi 0,1% aşağı salındıqda mənfəətin səviyyəsi də, yəni rentabellik (digər şərtlər yeni olduqda) bir qədər artır və s.

Yuxarıda qeyd etidiklərimiş təkliflərin həyata keçirilməsi son nəticədə ticarətdə səmərəliliyin yüksəldilməsinə nail olmaq olar.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı», 2007. 776 s.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı», 2011. 414 s.
3. Azərbaycan Respublikasının «Mühasibat uçotu haqqında Qanun»u. Bakı, 2004.
4. «Müəsssisənin uçot siyasəti haqqında Əsasnamə». 1997.
5. Səbzəliyev S., Abbasov Q. Xidmət sahələrində mühasibat uçotu. Bakı, 2015.
6. Səbzəliyev S. Xarici ölkələrdə mühasibat uçotu. Bakı, 2014.
7. Səbzəliyev S., Quliyev v. İdarətemə uçotu. Bakı, 2014.
8. Kommersiya təşkilatı üçün Milli Mühasibat Uçotu Standartları. Bakı, 2008.
9. Sadıqov Ə. və b. Mühasibat uçotu. Bakı, 2012.
10. Səbzəliyev S.M. Mühasibat (maliyyə) hesabatı. Bakı, ADİU-nun nəşriyyatı, 2003.
11. Abbasov Q, Səbzəliyev S., Daşdəmirov Ə., Quliyev V. Mühasibat (maliyyə) uçotu. bakı, 2003.
12. Mahmudov İ., Zeynalov T., İsmailov N. İqtisadi təhlil. Dərslik. Bakı, «İqtisad Universiteti», 2011. 794 s.
13. Müslümov S., Kazımov R. Maliyyə təhlili. Dərslik. Bakı, «CBS», 2011.
14. Аббасова С. Перспективный экономический анализ. Учебное пособие. Баку, 2006.
15. Kazımov R. Müəssisənin maliyyə sabitliyinin təhlili. Bakı, «İqtisad Universiteti» nəşriyyatı, 2000.
16. Kazımov R., İsmayılov N. Müəssisənin ödəmə qabiliyyətinin təhlili (metodik vəsait). Bakı, «İqtisad Universiteti» nəşriyyatı, 2000.
17. Abbasov Q. Mühasibat uçotunun nəzəriyyəsi. Bakı, 2009.
18. Mahmudov İ., Zeynalov T., Mahmudov R. Maliyyə vəziyyətinin təhlili. Bakı, 2002.

19. Mahmudov İ., Zeynalov T., Quliyev F. İqtisadi təhlil. Bakı, 2003.
20. Баканов М.И. Анализ хозяйственной деятельности в торговле. М.,1990, 353 стр.
21. Кравченко Л.И. Анализ хозяйственной деятельности предприятий общественного питания. Мн., 1998.
22. Кравчено Л.И. Анализ хозяйственной деятельности в торговле. Мн., 2003.